www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 avqust 2015-ci il Çərşənbə axşamı № 186 (6214) Qiymәti 40 qəpik

**Xəbər**

## Bakıda səfirin xanımı qəzaya düşdü

yazısı səh.2-də

**Gündəm**

### Rusiya rublu Ermənistanı qarışdırır



Kritik həddi keçən rublun sürətli devalvasiyası marionet ölkədə də təlaş yaradıb; İrandan hasilatla bağlı verilən bəyanat vəziyyəti daha da ağırlaşdıra bilər; manat da ciddi təzyiq altında...

yazısı səh.5-də

### Müxalifət bahalaşmaya etiraz edəcəkmi...

yazısı səh.4-də

### Sumqayıt cəbhəçiləri istefa verdilər

yazısı səh.5-də

### YAP seçki siyahısını nə zaman açıqlayacaq?

yazısı səh.6-da

### Rüstəm İbrahimbəyov niyə susur...

yazısı səh.4-də

### Tural Abbaslı "Ağ Blok"un fəaliyyət planlarından danışdı

yazısı səh.12-də

### Xədicə İsmayıl onun ittiham aktını işıqlandıran "Yeni Müsavat"a mesaj göndərdi

yazısı səh.11-də

### Super marketlər "susub", mini-marketlər bahalaşdırır

yazısı səh.10-da

### Azərbaycanın rayonlarında leysan yağacaq

yazısı səh.14-də

### Mərkəzi Bankın son addımları manatı xilas edəcəkmi...

yazısı səh.13-də

### 14 saylı cəzaçəkmə müəssisəsindəki ölüm işinə xitam verildi

yazısı səh.15-də

### Neftin qiyməti düşür, bəs benzin niyə ucuzlaşmır...

yazısı səh.13-də

## Təcavüzkar üçün "qara şənbə"

# CƏBHƏDƏ TOPLAR İŞƏ DÜŞDÜ - DÜŞMƏN AĞIR İTKİ VERDİ

Ermənistanın təxribat hərəkətlərinin qarşısı qətiyyətlə alındı; 5 işğalçı əsgər məhv edildi; **Vaqif Dərgahlı:** "Onlar öz itkilərini gizlədirlər..."



yazısı səh.9-da

## "Kredit işi" üzrə həbslər Cahangir Hacıyevin qohumlarına çatdı

Beynəlxalq Bankın sabiq rəhbərinin bacanağının barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçildi; iş adamı İsmayıl Hidayətzadə 100 milyon manat kredit götürüb və qaytarmayıb...

yazısı səh.2-də



*Şahin Cəfərli:*

### "Putinin devriləcəyi haqda deyilənlər real deyil"

yazısı səh.8-də



Əbülfəz Elçibəy

### Emin Millinin Elçibəy haqda fikirlərinə sərt reaksiya verildi

yazısı səh.11-də



Arif Hacılı

### Müsavat başqanından siyasi məhbuslarla bağlı çağırış

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015



## Prezident Sabirabadda yol çəkilişinə 1,5 milyin manat ayırdı

**Prezident İlham Əliyev Sabirabad rayonunun Nizami-Əliləmbəyli-Azadkənd-Sarxanbəyli avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunur ki, iyirmi iki min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Nizami-Əliləmbəyli-Azadkənd-Sarxanbəyli avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 1,5 milyon (bir milyon beş yüz min) manatı Sabirabad Rayon İcra Hakimiyyətinə ayrılsın.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

## Azərbaycanda dəhşətli "xərçəng" statistikası

**Bədxassəli şişlər Azərbaycanda miqyasına görə ölümə səbəb olan ikinci ən ağır xəstəlikdir. Ötən il dünyasını dəyişən 55 648 nəfərin 6982-si xərçəngdən əziyyət çəkirmiş. AzadlıqRadiosu xəbər verir ki, Dövlət Statistika Komitəsinin bu gün açıqladığı məlumata görə, 2014-cü ildə bədxassəli şişlərdən ölənlərin sayı əvvəlki ilə nisbətən 599 nəfər çox olub.**

Bu xəstəlikdən ölənlərin sayı ölkə əhalisinin hər 100 min nəfərinə 74,2 nəfər təşkil edib ki, bu da qan dövranı sistemi xəstəliklərindən ölənlərin *(hər 100 min nəfərə orta hesabla 353,6 nəfər)* sayından sonra ikinci göstəricidir. Daha sonra həzm sistemi, tənəffüs orqanları xəstəlikləri gəlir. Ötən il 11 mindən çox şəxsə onkoloji xəstəlik diaqnoz qoyulub. Bu, son illər qeydə alınan ən yüksək göstəricidir. Xəstəlik əsasən tənəffüs yollarında, mədədə və süd vəzisində aşkar edilib. Ümumiyyətlə, isə son 5 il ərzində bədənin müxtəlif orqanlarında xərçəng xəstəliyi aşkar olunanların sayı 50,6 min nəfəri keçib. Statistikaya görə, bu ilin əvvəlinə müalicə müəssisələrində qeydiyyatda olan şiş xəstələrinin sayı 38 minə çatır. İl ərzində onların sayı 9,4% artıb. Xəstəliyin miqyası xeyli genişlənib. Əgər 2000-ci ildə əhalinin hər 100 min nəfərinə orta hesabla 60,4 nəfər belə xəstə düşürdüsə, 2014-cü ildə bu rəqəm 101,4 nəfərə yüksəlib. Milli Onkologiya Mərkəzinə (MOM) müraciət edənləri sayı durmadan artır. Bunu mərkəzin A.Abbasov adına Bakı onkoloji dispanserinin qarşısında hər gün yaşanan qələbəlik də təsdiq edir. MOM-un Gəncə, Şəki, Sumqayıt, Naxçıvan, Lənkəran, Mingəçevir və Şirvanda regional mərkəzləri də fəaliyyət göstərir.

Bədxassəli şiş xəstəlikləri xeyli "cavanlaşıb" və 2012-ci ilin martından MOM-un nəzdində Qafqaz regionunda ilk Uşaq onkoloji klinikası açılıb.

Hər il dövlət büdcəsindən onkoloji xəstələrə yardım göstərilməsi üçün 20 milyon manatdan çox vəsait ayrılır. Amma MOM-a yolu düşənlərin bir çoxu deyir ki, müayinə və müalicələri heç də pulsuz başa gəlmir.

## Bakıda səfirin xanımı qəzaya düşdü

**Çexiyanın Azərbaycandakı səfirinin həyat yoldaşı Bakının Nərimanov rayonu ərazisində yol qəzasına düşüb. Bu barədə "Report"a Nərimanov Rayon Polis İdarəsindən bildirilib. Hadisə Təbriz küçəsində baş verib. Belə ki, səfirin həyat yoldaşı 39 yaşlı Monika Pivonkanın olduğu "Mercedes" markalı avtomobil "Nissan" markalı maşınla toqquşub.**

M.Pivankonun olduğu avtomobil səfirliyə məxsusdur. Hadisə nəticəsində xəsarət alan olmasa da, hər iki avtomobil əzilib. Faktla bağlı araşdırma aparılır.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

# "Kredit işi" üzrə həbslər Cahangir Hacıyevin qohumlarına çatdı

## Beynəlxalq Bankın sabiq rəhbərinin bacanağı barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçildi; iş adamı İsmayıl Hidayətzadə 100 milyon manat kredit götürüb və qaytarmayıb...

**Ölkənin bank sektorunda uzun illər ərzində həyata keçirilmiş maxinasiyalarla bağlı araşdırmalar və həbslər səngimir. Maliyyə cinayətləri əsasən iki bankda - Beynəlxalq Bank və "Bank Technique"də baş vermişdi.**


Cahangir Hacıyev

Ölkədə yaranmış maliyyə krizisi və real dövriyyədən yayındırılan vəsaitlərlə bağlı araşdırmalar zamanı Beynəlxalq Bankdan götürülmüş 6 milyard manatdan artıq pulun geri qaytarılmadığı üzə çıxmışdı. Nəticədə Cahangir Hacıyev bankın rəhbərliyindən uzaqlaşdırıldı və həbslər başladı.

Bugünədək Beynəlxalq Bank işi ilə ələqədar onlarla sahibkar - hansı ki, onlar Cahangir Hacıyevlə ələqəyə girərək hər biri 100 milyonlarla manat kredit götürərək, mənimsəyiblər. Həmin şəxslərin heç birinə güzəştə gedilmədi, hətta Hacı İbrahim Nehrəmli kimi iş adamı da istintaqa cəlb edildi, bir neçə dəfə saxlanılaraq Baş Mütəşəkkil Cinayətkarlığa Mübarizə İdarəsinə aparıldı. Onun hazırda banka 500 milyon manata yaxın borcu olduğu bildirilir.

Hazırda Beynəlxalq Bank işi üzrə 10-a yaxın sahibkar həbsdədir. Bundan başqa, xeyli iş adamlarının barəsində axtarış elan edilib, həmçinin, onlarla sahibkar BCQMİ-də dindirildikdən sonra ödənişləri qısa zamanda edəcəyinə dair öhdəliklər götürüb.

İlk gündən belə görünürdü ki, proseslərin gedişində həlqə darala və Cahangir Hacıyev özü də həbs edilə bilər. Artıq proseslər buna doğru gedir.

Belə ki, Cahangir Hacıyevin bacanağı, biznesmen İsmayıl Hidayətzadə həbs edilib. Bu barədə virtualaz.org saytına hüquq-mühafizə orqanlarındakı mötəbər mənbələrdən məlumat daxil olub.

Məlumata görə, İsmayıl Hidayətzadə Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs edilib. Biznesmen CM-nin 178.3.2-ci maddəsi ilə ittiham olunur. İ.Hidayətzadə Bakıda tütün fabriki yaratmaq üçün Beynəlxalq Bankdan 100 milyon dollar kredit götürübmüş. İstintaq bu kreditlərin təyinatı üzrə xərclənməsinə şübhə ilə yanaşır.

Qeyd edək ki, İ.Hidayətzadə DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin istintaq təcridxanasında saxlanılır.

**Heç şübhəsiz ki, İ.Hidayətzadə Cahangir Hacıyevin himayəsi olmasa, bu qədər məbləği bankdan çıxara bilməzdi. Üstəlik, bu kreditlər təyinatı üzrə sərf edilməyib, birbaşa korrupsiya qurbanına çevrilib. İşin yekununda Cahangir Hacıyevin bütün bu olaylara görə cavab verməli olacağı öncədən proqnozlaşdırılan məsələ idi. Deyəsən, həmin məqam artıq yetişib.**

**M.MAHRIZLI**



## "Bank Technique" ASC-dən kadr axını davam edir

**APA-nın məlumatına görə, bankın baş direktoru, biznesin inkişafı departamentinin direktoru Kamran Alik oğlu Axundov öz xahişi ilə işdən çıxıb.**

Qeyd edək ki, K. Axundov 17 iyun 1981-ci ildə Bakı şəhərində anadan olub. 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində İqtisadiyyatın hüquqi tənzimlənməsi fakültəsini bakalavr, 2004-cü ildə isə magistr dərəcəsi üzrə bitirib.

2004-2005-ci illərdə "Avropa LTD" şirkətində mühasib vəzifəsində çalışıdqdan sonra, 2005-2012-ci illər ərzində Azərbaycan Beynəlxalq Bankında xidmət bölməsinin mütəxəssisi vəzifəsindən Pərakəndə biznes departamenti, "ABB-Premyer" Müştəri xidmətlərində rəhbər müavini vəzifəsinədək yüksəlib. 2012-ci ilin iyun ayından "Bank Technique" ASC-də çalışıb.

Əlavə edək ki, K. Axundov Azərbaycanın ən savadlı bankirlərindən biri hesab olunur.

## Müsavat Divanının iclası keçirildi

**Avqustun 24-də Müsavat Partiyası Divanının növbəti iclası keçirilib. İclasda qərarların icrası və görülən işlər müzakirə edilib. Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlının görülən işlərlə bağlı məlumatı dinlənilib. 22 avqustda mərhum prezident Əbülfəz Elçibəyin vəfatı ilə bağlı məzarının ziyarət olunması yüksək qiymətləndirilib.**

Siyasi məhbusların məhkəmələrinin izlənilməsi bu həftə ərzində davam etdirilib. Dövlət ittihamçısının Xədicə İsmayıl haqqında 9 il iş istəməsi Divan tərəfindən siyasi repressiya tədbirlərinin davamı kimi qiymətləndirilərək pislənilib.

Müsavat Partiyasının sərbəst toplaşmaq azadlığı ilə bağlı Bakı şəhər İcra Hakimiyyətindən məhkəməyə etdiyi şikayətin apelyasiya mərhələsi haqda məlumat dinlənilib. Növbəti mərhələ kimi Ali Məhkəməyə müraciət edilməsi məqsədəuyğun sayılıb.

Siyasi məhbuslarla görüşlər barədə Müsavat Partiyası başqanının müavini Elman Fəttahın məlumatı dinlənilib.

Füzuli və Cəbrayıl rayonlarının işğal gününün ildönümü ilə bağlı Şəhidlər Xiyabanında təşkil olunan tədbirdə Divan üzvlərinin və partiya fəallarının iştirakı yüksək qiymətləndirilib.

Müsavat Partiyasının başqanı Arif Hacılı Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Malena Mardla görüşü barədə Divan üzvlərinə məlumat verib.

Parlament seçkiləri ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Seçki dairələri üzrə yekun siyahı bir daha müzakirə edilib və son dəqiqləşdirmələr üçün Məclisə qədər bu işin icrası yeni yaradılan Seçki Qərargahının rəhbəri Gülağa Aslanlıya həvalə edilib.

29 avqust tarixdə keçiriləcək Məclisin gündəliyinin layihəsi təsdiq olunub.

Divan son günlərin ən ciddi hadisəsi kimi Mingəçevir polis idarəsində baş verən ölüm faktı ilə bağlı yaranan durumu müzakirə edərək, baş verənlərin vəzifə özbaşınalığı, qanunsuzluq, idarətmənin hüquqa əsaslanmamasının insan faciəsi yaradan fəsadlarından biri kimi qiymətlədirib.

Sonda cari məsələlərə baxılıb.



## QHT Şurası müsabiqə qalibləri üçün məlumatlandırma sessiyası keçirib

**Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasında 2015-ci ilin ikinci maliyyə müsabiqəsi çərçivəsində maliyyələşdirilən layihələrin rəhbərlərinin iştirakı ilə məlumatlandırma sessiyası keçirilib. Toplantıda çıxış edən Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov layihələrin icrasında effektiv nəticənin əldə olunması, büdcənin idarə edilməsi, yeni hesabatlılıq qaydaları və layihələrin qiymətləndirilməsi metodologiyası ilə bağlı fikirlərini bildirib.**

Şura Katibliyinin əməkdaşları Xanım Cəbrayılova, Elnur Bağırlı, Nigar Ağakişiyeva və Mirzağa Zaidov layihələrin idarə olunması, hesabatlılıq, nəzarət və monitorinq məsələləri ilə bağlı təlimatları QHT rəhbərlərinin diqqətinə çatdırıb. Sessiyada QHT rəhbərləri layihələrin icrasının müxtəlif istiqamətləri, o cümlədən təlimlərin təşkili, hesabatların hazırlanması ilə bağlı təkliflərini səslətdirib. Toplantının sonunda QHT təmsilçilərini maraqlandıran suallar cavablandırılıb.

## İrana qarşı sanksiyaların götürülmə tarixi müəyyənləşdi

**Beynəlxalq ictimaiyyət İrana qarşı sanksiyaların aradan qaldırılmasını 2016-cı ilin yazında nəzərdən keçirə bilər. APA-nın TASS agentliyinə istinadən verdiyi xəbərə görə, bu barədə Birləşmiş Krallığın xarici işlər naziri Filip Hammond bildirib. F. Hammond deyib ki, İran iqtisadiyyatına xarici investisiyaların yatırılması ilə bağlı ilkin müzakirələr sanksiyaların ləğvinə qədər başlaya bilər. Suriya məsələsinə də toxunan britaniyalı nazir qeyd edib ki, bu məsələ və Bəşər Əsədin gələcəyi barədə müzakirələr İran və Rusiyanın iştirakı ilə aparılmalıdır. Onun sözlərinə görə, Suriyanın gələcəyi Əsədlə bağlı ola bilməz. Nazirin fikrincə, bu məsələdə Tehran və Moskva ilə dialoq davam etdirilməlidir.**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015




# Partiya sədrlərindən Mingəçevir hadisələri haqda maraqlı açıqlamalar

**Arif Hacılı:** "Etirazları zorakılıqla yatırmaqla problemləri həll etmək olmaz"

**Fəzail Ağamalı:** "Mingəçevir hadisəsindən hər kəs özü üçün konkret nəticə çıxarmalıdır"

**Sərdar Cəlaloğlu:** "Bu. xarici qüvvələrin təşkil etdiyi təxribat da ola bilər"

Mingəçevirdə baş verən hadisələrə siyasi partiyaların sədrləri münasibət bildirib.

**Müsavat Partiyasının başqanı Arif Hacılı** "Yeni Müsavat"a deyib ki, Mingəçevirdə baş verən hadisəyə görə günahkarlar ciddi cəzalanmalı, hüquq mühafizə orqanları tərəfindən belə hallara yol verilməsinin qarşısının alınması üçün tədbirlər görülməlidir: "Etirazları zorakılıqla yatırmaqla problemləri həll etmək olmaz. İnsanları dinləmək, onların tələblərinə həssas yanaşmaq lazımdır. Ölkədə qanunun aliliyi prinsiplərinə əməl olunmadıqca belə hadisələr tez-tez baş verəcək".

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** bildirib ki, araşdırmalar başa çatandan sonra hadisəyə daha dəqiq fikir bildirmək mümkündür: "Bir halda ki, gəncin ölümü ilə bağlı dərhal Daxili İşlər Nazirliyi reaksiya verdi, ölkə prezidenti olayı şəxsi nəzarətinə götürdü, bu hadisəyə görə şəhərdə qarşıqlıq yaratmaq düzgün deyildi. Elə etmək lazımdır ki, belə arzuolunmaz hadisələrdən ölkəmizi istəməyən qüvvələr istifadə edə bilməsin. Çünki çox həssas bir dövr yaşanır. Azərbaycana, regiona bu gün çox fərqli münasibətlər mövcuddur. Bu münasibətlərin hər birinin Azərbaycan üçün özünəməxsus təhlükəsi var. Belə bir vəziyyətdə hər bir vətəndaş atdığı addımın məsuliyyətini dərk etməlidir. Eyni zamanda dövlət məmurları da vətəndaşlarla münasibətdə müəyyən olunmuş qayda-qanuna, vətəndaş hüquqlarının qorunmasına, onun təhlükəsizliyinə xüsusi əhəmiyyət verməlidirlər. Cinayətkarla cinayətkar kimi davranmaq düzgün deyil. Cinayətkarla gərək hüquq mühafizə orqanları daha çox bir psixoloq kimi davranmağı bacarsın. Görünür Mingəçevirdə məlum hadisəyə görə işdən çıxarılan və artıq həbs edilən polis əməkdaşının bu baxımdan kifayət qədər təcrübəsi olmadığı üçün belə hadisə baş verib. Mingəçevir hadisəsindən hər kəs özü üçün konkret nəticə çıxarmalıdır. Belə halların bundan sonra baş verməsinə imkan verilməməlidir".

**ADP sədri Sərdar Cəlaloğlu** isə bildirdi ki, heç bir qeyri-siyasi işi süni surətdə siyasiləşdirmək lazım deyil, onsuz da bütün qeyri-siyasi işlərin siyasi nəticələri olur. Mingəçevirdəki hadisə də siyasi və ya qeyri-siyasi olmasından asılı olmayaraq, siyasi nəticələrə gətirib çıxaracaq: "Bu gün dünyada baş verən hadisələrə, beynəlxalq konyukturaya nəzər salsaq görərik ki, ətrafımızda cəmiyyətləri və dövlətləri məhv edən çox təhlükəli proseslər gedir. Suriya kimi, İraq kimi dövlətlər süquta uğrayıb, Ukrayna parçalanıb, eyni zamanda iqtisadi böhrandan bəzi inkişaf etmiş Avropa ölkələri defolt vəziyyətinə düşüb öz suverenliyini itirmək təhlükəsi qarşısındadır. Belə bir zamanda Azərbaycanda Mingəçevirdəki kimi hadisələrin baş verməsinin səbəbləri ciddi araşdırılmalıdır. Birinci növbədə araşdırmaq lazımdır ki, bu hadisə təxribatdırmı və təxribatdırsa, arxasında hansı qüvvələr durur.

İkincisi, hər bir Azərbaycan vətəndaşı bu cür hadisələrin yayılmasında maraqlı olmamalıdır. Əksinə, bunun aradan qalxmasına xidmət eləməlidir. Çünki bu cür kortəbii hərəkatların baş qaldırması xarici qüvvələrin və gizli qüvvələrin xeyrinə işləyə bilər. Aşkar qüvvələr, aşkar fəaliyyət göstərən müxalifət təşkilatları bu cür hadisələrdə iştirak eləyə bilməz. Odur ki, Mingəçevir hadisələrinin müxalifət təşkilatlarına qarşı seçki öncəsi istifadə edilməsi tamamilə yanlış olardı. O cür gərginlikləri, münaqişələri adətən gizli qüvvələr içəridən gizli şəkildə alovlandırır, yayır, başqa səmtə yönəldir".

**ADP sədri vurğuladı ki, Mingəçevirdə məlum hadisələrə səbəb olan tərəflə bağlı hakimiyyət çox ciddi tədbir görməlidir. Amma eyni zamanda xalqa da izah edilməlidir ki, indiki beynəlxalq konyukturada bu cür kortəbii çıxışlar bütünlükdə Azərbaycan dövlətçiliyini, suverenliyini təhdid altında qoya bilər:** "Bunu hər birimiz başa düşməliyik, liderlər də, hakimiyyət nümayəndələri də başa düşməlidir. Kim ki, bu cür hadisələrin meydana çıxmasına səbəb olur və ya hadisələrdə iştirak edir, məlum olacaq ki, bu qüvvələr radikal gizli qüvvələrin tərəfdarlarıdır, ya da başqa bir dövlətin maraqlarını həyata keçirən qüvvələrdir. İndiki vəziyyətdə ölkədə xaosa, iğtişaşa gətirib çıxaran hadisələrə səbəb olmaq, onu təşkil etmək Azərbaycan dövlətçiliyinin əleyhinə olmaqdır. Hər dəfə Azərbaycanda belə hadisələr olanda birinci növbədə bunun arxasında Rusiyanın və ya başqa bir dövlətin, onlara xidmət edən daxildəki qüvvələrin durub-durmadığını müəyyənləşdirməliyik. Mingəçevir hadisəsində günahkar olan tərəf də ola bilsin ki, Rusiyanın və başqa bir dövlətin maraqlarına xidmət edən daxili qüvvələrdir".

S.Cəlaloğlunun fikrincə, belə qüvvələrin hakimiyyətin daxilində olması da mümkündür.

**VİP sədri Əli Əliyev** isə bildirdi ki, Mingəçevirdə baş verən son hadisəni bundan öncəki digər hadisələrdən ayırmaq lazımdır: "Bu, daha çox Quba və İsmayıllı hadisələrinə bənzəyir. Hansı ki, insanlar bu olaylar zamanı da kütləvi şəkildə öz narazılıqlarını ortaya qoymuşdular.

Mingəçevirdə baş verənlər məmur özbaşınalığının, yerli hakimiyyət strukturları ilə vətəndaşlar arasında qarşıdurma vəziyyətinin siqnalıdır. Yerlərdə bəzi məmurların özbaşınalığı səbəbi ilə Quba və İsmayıllıda ciddi narazılıqlar meydana çıxmışdı. İndi isə Mingəçevir hadisələri meydana çıxmaqdadır. Buna səbəb isə yerlərdəki məmurların qanunların tələblərinə əməl etməməsidir. Yerlərdəki bəzi məmurlar özlərini dövlətin təmsilçisi kimi aparmırlar. Onlar özlərini daha çox hakimi-mütləq kimi aparırlar.

Təbii ki, Mingəçevir hadisələri ilə bağlı ciddi araşdırmaya ehtiyac var. Bu hadisənin səbəbləri ortaya çıxarılmalıdır. Baş verən etirazlar məmur özbaşınalığına göstərilən təpgidir. Artıq insanlar məmur özbaşınalığına qarşı dözümsüzlük nümayiş etdirir".

❑ Etibar SEYİDAĞA



# Hüquq müdafiəçisi Mingəçevir polisində araşdırma aparacaq

**Elçin Behbudov:** "Mən mərhumun yaxınlarını dinləyəndən sonra ona elektroşok verilməsi haqda nəsə deyə bilərəm"



**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sərdi Elçin Behbudov Mingəçevir Şəhər Polis İdarəsinə gedərək avqustun 20-də orada dünyasını dəyişən 27 yaşlı Bəhruz Hacıyevin ölümü ilə bağlı araşdırma aparacaq. Hüquq müdafiəçisi "Yeni Müsavat"a deyib ki, araşdırmanın nəticəsi ahqda ictimaiyyətə açıqlama verəcək: "Bəhruz Hacıyevin öülmünə heyfslənirəm, ailəsinə səbr diləyirəm. Ora gedib araşdırma aparacağam. Orada hər kəsi dinləyəcəyəm, Bəhruzun yaxınları ilə görüşəcəyəm. Fakt budur ki, orada ölüm hadisəsi var, rəsmi olaraq Bəhruz Hacıyevin özünü polisin binasından atdığı, intihar etdiyi bildirlir. Bunu yerində araşdıracağıq".**

**E.Behbudov deyib ki, Mingəçevir prokurorluğu ilə də əlaqə saxlayıb:** "Prokurorla danışdım, dedi ki, ekspertiza təyin olunub, ekspertiza zamanı bədəni üzərində işgəncə əlamətləri aşkar olunmayıb. Lakin həmin rəyə mərhumun ailə üzvləri inanmayıb. Ona görə də təkrar ekspertiza keçirilib, onların iştirakı da təmin olunub. Təkrar ekspertizanın rəyində də onun işgəncə və qeyri-insani rəftara məruz qalması təsdiqlənməyib. Bunu mənə telefon danışığı zamanı deyiblər, özüm yerindəcə araşdırma aparacağam. Bəhruz Hacıyev ora aparılan andan harada saxlanılması, yanında kimlərin olması və s detalları araşdıracağam. Müavinim Elçin Şirinovla birgə orada araşdırma aparacağıq. Öyrəndiklərimizi aktlaşdırıb ictiçiyyətə bu haqda məlumat verəcəyəm".

**E.Behbudov deyir ki, B.Hacıyevin ölümü bir daha saxlama yerlərində, dindirmə otaqlarında pəncərələrə dəmir məhəccərlərin vurulması ilə bağlı illər əvvəldən söylənilən fikirləri aktuallaşdırıb:** "2000-ci illərin əvvəllərində Səbayel Rayon Polis İdarəsində bir gənc özünü atıb öldürdü. Bundan sonra orada pəncərələrə dəmir məhəccərlər vuruldu. Bakı Şəhər Baş Polis İdarəsinin köhnə binasında da belə hallar tez-tez təkrarlanırdı. Hətta bir nəfərin ərizəsi indi də məndə var. O, özünü Baş Polis İdarəsinin binasından atmışdı, amma ölməmişdi, 2 ayağını itirmişdi. Sonradan ora da pəncərələrə dəmir məhəccərlər vuruldu. Mən Mingəçevirdəki araşdırmamala bağlı daxili işlər nazirinə məlumat verəcəyəm, ona dindirmə otaqlarının pəncərələrinə dəmir məhəccərlər vurulması ilə bağlı fikirləri də çatdıracağam".

**E.Behbudov mərhum B.Hacıyevin elektroşokla vurulması ilə bağlı məlumatları da araşdıracağını dedi:** "Mərhumun atası deyir ki, oğlunu elektrokla vurublar. Vaxtilə mənim özüm də elektroşokla işgəncəyə məruz qalmışam. Hərbi-səhra telefonların elektroşok funksiyası da vardı. Elektroşokdan sonra qançır izləri olmur, bir balaca nöqtə qansızma izi qalır. Mən mərhumun yaxınlarını dinləyəndən sonra ona elektroşok verilməsi haqda nəsə deyə bilərəm".

**E.Behbudov deyir ki, istintaqçıda elektroşokun olması qanuna yol verilmir. Bu haqda qanun var:** "Bütün sivil dövlətlərdə olduğu kimi Azərbacanda da elektroşokdan istifadəyə icazə verilib və konkret olaraq hansı vəzifəli şəxslərin bundan istifadəsi göstərilib. Təbii ki, istintaq araşdırmalıdır ki, əgər Bəhruz Hacıyevə elektroşok tətbiq olunubsa, bunu səlahiyyəti olan şəxs verib ya yox. Həm də həmin elektroşokun qanuni və ya qanunsuz tətbiqi məsələsi də araşdırılmalıdır. Polisə elektroşokdan başqa tabel silahı da verilir. Əgər həmin silah qanunsuz tətbiq edilirsə, əlbəttə ki, həmin silahın sahibi olan şəxs məsuliyyət daşıyır və cinayət məsuliyyətinə cəlb olunur".

**Qeyd edək ki, Azərbaycanda polis əməkdaşlarının elektroşokdan istifadəyə ötən ilin oktyabrında qəbul olunmuş qanuna əsasən icazə verilib. "Polis haqda" Qanuna elektroşok 4 halda istifadə oluna bilər - cinayətkarın insan həyatına təhlükə yaratdığı halda; kütləvi iğtişaşlar və qiyamlar zamanı; silahlı şəxsin silahdan istifadə etməklə müqavimət göstərmək ehtimalı olduğu halda; həbsdə olan şəxsi güc yolu ilə qaçırmaq istəyi olduqda.**

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015

**Belarus prezidenti Aleksandr Lukaşenko 6 siyasi məhbusu əfv edib. Azad olunanlar sırasında prezidentliyə keçmiş namizəd Nikolay Statkeviç də var. Statkeviç 2010-cu ildə 6,5 il həbs cəzasına məhkum edilmişdi. Digər azadlığa buraxılanlar Nikolay Dedok (Rusiya səfirliyinə hücuma görə 4,5 il cəza), İqor Olineviç (eyni ittihamla 8 il cəza), Yevgeni Vaskoviç (DTK-nın binasını yandırmaq ittihamı ilə 7 il cəza), Artyom Prokopenko (eyni ittihamla 7 il) və Yuri Rubtsovdur (hakimi təhqir etmək ittihamı ilə 1,5 il).**

Xatırladaq ki, 2010-cu ildə Belarusda paytaxt Minskin mərkəzində kütləvi etiraz aksiyaları ilə müşayiət olunan prezident seçkiləri keçirilib. Aksiyalar zamanı etirazçılar MSK-nın yerləşdiyi Hökumət Evinə hücuma cəhd ediblər. Etiraz aksiyaları zamanı 700-dən çox adam həbs olunmuşdu. Səsvermədən sonra prezident Lukaşenkonun doqquz rəqibindən beşi, həmçinin Nikolay Statkeviç həbs olunaraq "kütləvi aksiyaların təşkilinə" görə müxtəlif müddətə azadlıqdan məhrum olunmuşdular. N.Statkeviç altı illik cəzasını ciddi rejimli həbsxanada çəkirdi.

"Amnesty İnternational" təşkilatı Lukaşenkonun yeni əfv etdiyi 6 nəfərin ikisini vicdan məhbusu, dördünü isə siyasi məhbus kimi tanımışdı.

# Müsavat başqanından siyasi məhbuslarla bağlı çağırış

## "Cəmiyyət dartılmış yay kimidir, hərəkətə gəlsə, hər şeyi məhvərindən oynadacaq".


Arif Hacılı

Qeyd edək ki, "Amnesty İnternational" Azərbaycanda hazırda həbsdə saxlanılan bir sıra məhbusları vicdan məhbusu, bir qrupunu siyasi məhbus kimi tanıyıb. Beynəlxalq təşkilatlar və daxildəki müxalif qüvvələr həmin məhbusların azad olunmasını hakimiyyət qarşısında qaldırıblar, çağırışlar vaxtaşırı olur. Lakin hələ ki, sözügedən məhbuslar barəsində əfv fərmanı verilmir.

**Müsavat Partiyasının başqanı Arif Hacılı** Belarus prezidentinin əfv fərmanı ilə hətta Belarus kimi avtoritarizmin hökm sürdüyü ölkədə vicdan və siyasi məhbus qalmadığını bildirib və Azərbaycan hakimiyyətini vicdan və siyasi məhbusları azad etməyə çağırıb: "Avropanın sonuncu diktatoru adlandırılan Lukaşenko da öz xalqına, öz xalqının seçilən nümayəndələrinə qarşı mübarizənin mənasız və ziyanlı olduğunu anladı. Belorusda yerli hüquq müdafiə təşkilatları 6 nəferi siyasi məhbus elan etmişdi. Onlardan ikisi vicdan məhbusu kimi tanınmışdı. Lukaşenko hər birini azadlığa buraxdı. İndi Belorusda siyasi məhbus yoxdur".

**Müsavat başqanı daha sonra "Yeni Müsavat'ın müxbirinə deyib ki, Azərbaycan dünyada siyasi məhbusların sayına görə lider ölkədir**: "Azərbaycanda 100-dək siyasi məhbus var. Ciddi siyasi diskriminasiyanın olduğu, Azərbaycandan dəfələrlə böyük olan Rusiyada belə, siyasi məhbusların sayı bizdəkindən 3 dəfə azdır. Azərbaycanı korrupsiyanın miqyasına, siyasi məhbusların sayına görə lider dövlətə çevirən siyasət dərhal durdurulmalıdır. Daha "keçid dövrü", "tədrici islahatlar" kimi nağıllara zaman yoxdur. Cəmiyyət dartılmış yay kimidir. Hərəkətə gəlsə, hər şeyi məhvərindən oynadacaq".

**Onu da bildirək ki, bu gün saat 16.00-da Müsavat Partiyasının qərargahında siyasi məhbuslarla bağlı tədbir keçiriləcək. Tədbirin təşkilatçısı Müsavat Partiyasıdır.**

❑ **E.SEYİDAĞA**

# Müxalifət bahalaşmaya etiraz edəcəmi...

## Partiyalar gedən proseslərlə bağlı fərqli mövqedədir


Gülağa Aslanlı


İqbal Ağazadə


Mirmahmud Mirəlioğlu

**Son günlər ölkəmizdə ərzaq məhsullarının qiymətində ciddi artım müşahidə olunur. Bəzi ekspertlər hesab edirlər ki, qiymətlər gələn aylarda daha da artacaq və bu, sonda növbəti devalvasiya ilə nəticələnəcək. Proseslərin buna doğru yönəldiyini demək mümkündür.**

Müxalifət partiyalarının qiymət artımı ilə bağlı atacaqları addımlar maraq doğurur. Adətən, indiyə qədər bu cür hallar baş verdikdə, etiraz aksiyalarının keçirildiyinin şahidi olmuşuq. İndi də buna bənzər hadisələr yaşanacaqmı?

Bu sualla öndə gedən müxalif qurumlara müraciət etdik.

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı** növbəti devalvasiyanın Azərbaycanda gözlənildiyini bildirdi: "Bu cür hal növbəti dəfə yaşana bilər. Növbəti devalvasiyadan sonra xalq hərəkətə gəlməli və öz sözünü deməlidir. Müsavat Partiyası öz üzərinə düşən işləri daim görüb, bundan sonra da görəcək".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** fərqli düşünür. O hesab edir ki, hakimiyyət qarşıdan gələn parlament seçkilərinə qədər bahalaşmanın qarşısını alacaq: "Bu günlərdə növbəti devalvasiyanın olacağını gözləmirəm. Milli Bank seçkilərdən sonra bununla bağlı qərar verə bilər. Maksimum dərəcədə çalışacaqlar ki, prosesləri tənzimləyə bilsinlər. Amma qiymət artımının qarşısını almaq mümkün olmayacaq. Çünki Azərbaycanın ərzaq, daxili bazarları ətraf dövlətlərlə sıx bağlıdır. Xüsusilə postsovet ölkələri ilə. Yeni valyutanın aşağı düşməsi proseslərə təsir edəcək. Amma Milli Bank ən azı noyabra qədər prosesləri yolunda saxlaya biləcək. Noyabr ayından sonra neftin qiyməti düşməkdə davam edəcəksə, proseslər bu şəkildə gedəcəksə, devalvasiya qaçılmaz olacaq. Azərbaycan manatının aşağı düşməsi prosesi də davamlı olacaq".

**KXCP sədri Mirmahmud Mirəlioğlu** yaşanan bu cür proseslərdən heç bir ölkənin sığortalanmadığını qeyd etdi: "Dünyada müşahidə olunan bu kimi proseslər Azərbaycandan yan keçməyəcək. Televiziya və radio jurnalistləri təmtəraqla danışırlar ki, bu cür hallar olmayacaq. Qeyd edirlər ki, yayılan xəbərlər doğru deyil, dollar qıtlığı yaşanır. Bütün bunlar onu göstərir ki, devalvasiya olacaq. Buna təkcə siyasi partiyalar, bloklar yox, cəmiyyət münasibət bildirməlidir. Amma hələ ki, cəmiyyətin münasibəti ortada yoxdur".

❑ **Cavanşir ABBASLI**

# Rüstəm İbrahimbəyov niyə susur...

## Milli Şura sədri Azərbaycandakı proseslərdən uzaq düşüb



**Milli Şuranın fəxri sədri, kinorejissor Rüstəm İbrahimbəyov son zamanlar ictimai-siyasi proseslərə ümumiyyətlə qarışmır. Maraqlısı odur ki, ölkədə əsas güc sahibi və yeganə müxalif qurum olduğu iddiasını vaxtaşırı dövriyyəyə buraxan Milli Şura adlı quruma rəhbərlik edən şəxs Azərbaycandakı proseslərə demək olar ki, qarışmır.**

Kiçik bir araşdırma nəticəsində bəlli oldu ki, R.İbrahimbəyovun mediada mövqeyi iyulun 31-də dərc olunub. Bu mövqe isə Milli Kino Günü ilə əlaqədardır. Belə ki, Azərbaycan Kinomotoqrafçılar İttifaqının sədri R.İbrahimbəyov həmkarlarına müraciətlə Milli Kinomuzun 117 yaşı barədə təbriklərini çatdırıb.

Lakin Milli Şuranın fəxri sədri nəinki Mingəçevirdə baş verənlərə, hətta qarşıdakı parlament seçkilərinə dair də hər hansı mövqe bildirməyə zərurət görmür. Hesab edilir ki, R.İbrahimbəyov proseslərdən kənarda dayanmaqla hakimiyyətin ona qarşı münasibətini mülayimləşdirməyə çalışır. Xatırladaq ki, R.İbrahimbəyovun rəhbərlik etdiyi Kinomotoqrafçılar İttifaqı ilə bağlı cinayət işinin qaldırılıB və onun ölkəyə girişi faktiki olaraq məhdudlaşdırılıb. Belə bir durumda Azərbaycana gəlməyi təhlükəli sayan kinorejissor daha çox ABŞ və Rusiyada yaradıcılıq işlərinə vaxt ayırır. Eyni zamanda o, səhhətində ciddi problemlərin yaranması səbəbindən vaxtaşırı Amerikada müalicə kurslarına getdiyini də bildirib.

Lakin istənilən halda Milli Şuranın fəxri sədri poztunda olan bir şəxsin Azərbaycandakı proseslərdən kənarda dayanması məntiqli görünmür. Yeri gəlmişkən, Milli Şuranın rəhbərliyində olan bəzi şəxslər vaxtaşırı ölkədə baş verənlərin günahını "Yeni Müsavat"da, onun rəhbərliyində axtarmağa absurd şəkildə cəhd göstərirlər, sosial şəbəkədə və təsir dairələrində olan media qurumlarında kampaniya aparırlar. Lakin qurumda kimsə özündə cəsarət tapıb R.İbrahimbəyova "axı, niyə susursunuz" sualını ünvanlaya bilmir.

**"Yeni Müsavat" olaraq bu suala cavab almaq istədik. Lakin kinorejissora ünvanladığımız sualın cavabında yalnız bunu eşitdik: "Mən məşğulam, danışa bilməyəcəyəm..."**

❑ **Vüqar MURAD**

YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015

# Rusiya rublu Ermənistanı qarışdırır



## Kritik həddi keçən rublun sürətli devalvasiyası marionet ölkədə də təlaş yaradıb; İrandan hasilatla bağlı verilən bəyanat vəziyyəti daha da ağırlaşdıra bilər; manat da ciddi təzyiq altında...

**Qərbin Rusiyaya və onun yeni müttəfiqi Çinə qarşı valyuta savaşı davam edir. Müşahidələr göstərir ki, ABŞ başda olmaqla dünyanın əsas maliyyə və demokratiya paytaxtları şimal qonşumuzu ən zəif yerindən vurmaq üçün həlledici rıçaqları işə salıb. Bəzi müşahidəçilərə görə, iqtisadi müharibədə Rusiya iqtisadiyyatı ən uzağı, iki il duruş gətirəcək.**

Təbii ki, prosesin hara apardığını hesablayan Rusiyadakı ağıllı başlar iki il gözləyə bilməzlər və prosesi durdurmaq üçün preventiv addımlar haqda düşünəcəklər. Bu addımlar isə yalnız kompromis mahiyyətli, Qərbin ələlxüsus da postsovet məkanı ilə (Ukrayna, Gürcüstan, Azərbaycan) bağlı gözləntilərinə adekvat olmalıdır, əks təqdirdə Rusiyaya iqtisadiyyatına və maliyyə sisteminə qarşı sanksiyalar, təzyiqlər yumşalmayacaq, tərsinə - şiddətlənəcək.

***

ABŞ dolları ilə savaşda ən ağır zərbələri təbii ki, rus rublu yeməkdədir. Belə ki, Rublun ucuzlaşması dünən də davam edib: ötən həftə dolların kursu 69,12 rubl həndəvərində yekunlaşmışdısa, dünən birjaların açılması ilə ucuzlaşma da kəskin şəkildə özünü göstərib - Moskva birjasında 1 dollar 71,049 rubla, bir avro isə 81,389 rubla təklif edilib və bu da son deyil, sürətli ucuzlaşma davam edir.

Paralel surətdə Rusiyanın nəhəng şirkətləri dəyər itirməkdə, ziyan çəkməkdədir. Belə ki, həftənin əvvəlində neftin qiymətinin ucuzlaşması və rublun dəyər itirməsi fond birjasında özünü dərhal büruzə verib, ölkənin nəhəng şirkətlərinin aksiyaları ucuzlaşmağa başlayıb. Hazırda "Qazprom"un aksiyaları 1,8, "Lukoil" 1,29, BTB isə 1,34 faiz ucuzlaşıb.

Rusiya iqtisadiyyatı üçün vəziyyəti daha da ümidsiz edən amillərdən biri İranın böyük neft bazarına qayıdışa hazırlaşmasıdır. Dünən bununla bağlı ölkənin neft naziri Zəncani bir daha aydın şəkildə bəyan edib ki, Tehran nəyin bahasına olur-olsun neft bazarına qayıtmaq niyyətindədir. "Bizim başqa çıxış yolumuz yoxdur" - qeyd edib nazir. Xatırladaq ki, sanksiyalaradək İran OPEC-də neft ixracına görə ikinci yerdə olub.

Yəni "qara qızıl" 40 dollara düşsə də *(dünən "Brend" markalı neftin qiyməti 44 dollara yaxınlaşıb)*, belə çıxır, İran hasilatı nəinki azaltmayacaq, əksinə artıracaq və deməli, neft daha da ucuzlaşmaqda davam edəcək. Rusiya, Qazaxıstan, Azərbaycan, lap elə İran kimi avtoritar ölkələrdə milli valyutaların dollara nisbətdə kursu isə bilavasitə neftdən asılıdır.

***

Azərbaycan manatına da bu və başqa obyektiv səbəbdən təzyiqlər ciddi ölçüdə artmaqdadır. Hərçənd, bizim iqtisadiyyat Rusiyadan və İrandan asılı deyil. Əvəzində iqtisadiyyatımızın və büdcəmizin "neft iynəsi"nə oturması, istər-istəməz Azərbaycanlın milli valyutasını da rubl, rial kimi oxşar tale yaşanmaq zorunda qoyur.

Ermənistan bu mənada daha kritik durumla üz-üzədir, çünki iqtisadi-ticari münasibətləri bütünlüklə Rusiyaya bağlıdır, energetik sferası tamamən Rusiyanın nəzarətindədir. Bu və digər amillərə görə rublun başına gələnlər əks-səda kimi dərhal Ermənistanda da özünü büruzə verir. İşğalçı ölkədə hazırda panik ovqat hökm sürür yazsaq, yanılmarıq. Bunu Ermənistanın Sənayeçilər və İşəgötürənlər İttifaqının icraçı direktoru Eduard Kirokosyanın açıqlaması da təsdiqləyir.

"Təəssüf ki, biz Avrasiya İqtisadi Birliyinə Rusiyada iqtisadi böhran yarananda daxil olmuşuq və bu, bizə ciddi şəkildə təsir göstərdi" - deyib Kirokosyan. Onun sözlərinə görə, yaranmış vəziyyətdən çıxmaq elə də asan deyil. "Bundan ötrü biz əlavə dəyər vergisinə qayıtmaq məsələsini qaldırmışıq. Bu məsələ isə dərhal həllini tapa bilməz, çünki Avrasiya Birliyi ölkələrinin hamısının istəyindən asılıdır" - deyib erməni iqtisadçısı və onu da əlavə edib ki, hər şey rublun devalvasiyasından asılı olacaq: "Belə situasiyalardan qaçmaq üçün zamanında Ermənistan iqtisadiyyatını şaxələndirmək lazım idi ki, başqa ölkədəki iqtisadi böhran bizə pis təsir eləməsin".

***

**Bu xüsusda Azərbaycan sözsüz ki, müqayisədə uğurlu durumda görünür. Ancaq ölkə iqtisadiyyatındakı monopoliya və korrupsiya, qeyri-şəffaflıq, iqtisadi-biznes azadlıqlarının demək olar, təmin olunmaması və neftdən bəlli asılılıq, iqtisadiyyatın vaxtında şaxələndirilməməsi manatı heç də az risk altında qoymur. Önümüzdəki həftələr, xüsusən sentyabra ayı, bəzi ekspertlərin də proqnoz elədiyi kimi, manat üçün də böhranlı keçə bilər.**

❑ **Siyasət şöbəsi**

# SənSiz



**Aysel ƏLİZADƏ**

**Adamı ilk dəfə görən birinin "sən" deyə müraciət etməsini heç vaxt başa düşməmişəm.**

Ömründə birinci dəfə gördüyün adam sənlə niyə belə ərklə danışsın axı?

Bir dəfə masanı yığışdırırdım. Qızıma, "İzel, keç" - dedim. Yerindən tərpənmədi və barmağı dodağında soruşdu:

- Sən pis anasan.
- Niyə, qızım?
- "İzel, zəhmət olmasa keç" demək yerinə, "İzel, keç!" dedin. Adam belə deyər?

Gözümü döyə-döyə udqunub - "yox, deməz, qızım. Üzr istəyirəm, bağışla" söylədim.

- Bağışlayıram - özündən razı halda mətbəxdən çıxdı.

18 yaşımda TV-də müsabiqədən keçdim. O zaman ustad Rafiq Hüseynli bizə aparıcılıq dərsi verdi. Sözün əsl mənasında dərs verdi.

Rafiq müəllim bircə dəfə bizə "sən" demədi. Ta münasibətimiz müəllim-tələbə müstəvisindən çıxıb dostluğa çevrilənəcən.

Onun gənclərə "siz"lə yanaşması xoşuma gəlirdi, hətta bundan elə zövq alırdım ki, o, dərs keçəndə sadəcə izləyici olmaq istəyirdim. Əla öyrətmənlərim olub. Nə yalan deyim, "siz"lə danışan müəllim ilk dəfə görürdüm.

Sonra akademik Azad Mirzəcanzadə ilə tanış oldum. O da tələbələri ilə "siz"lə danışırdı. Hətta çox yaxın tələbələri ilə, mənimlə də. Özündən yarım əsr kiçik bir qıza hörmətlə "siz" deyən bu adam Rafiq müəllimi xatırladırdı hər dəfə. Hər "siz" deyişində üçümüz görüşürdük elə bil: Rafiq müəllim, Azad müəllim və mən.

Öyrəndim ki, Azad müəllim yalnız ən yaxın - barmaqla sayılacaq adamlara "sən" deyir. Əgər onlardan biri ilə arası bərk dəyibsə onu "siz"lə cəzalandırır. Özündən uzaqlaşdırdığına, yadlaşdığına işarə edərək ona "siz" deməyə başlayır.

Ünsiyyət etiketlərinə görə "sən" yalnız çox yaxın adamların çağırışıdı. Kübar cəmiyyətlərdə ər-arvad adam içində "siz"lə danışar. Doğunun da, Batının da saray həyatında belə olub.

"Siz"in anlamı çoxdu. İsmin halı kimi də elə çoxlu "sən"ləri ifadə edir.

"Siz" bir neçə adam, bir neçə "sən" deməkdi.

Ona görə də "sən"in yalnız tək-tək adamlara, çox yaxınlara deyilməsi gərəkdi.

Böyüklərə "siz" deməyin də anlamı odu ki, onun təcrübəsi daha çoxdu, bir çox "sən"ləri özündə birləşdirir, şəxsi böyükdür, çox adama dəyər.

"Siz" cəm əvəzliyi olsa da bəzən "lər" şəkilçisi əlavə edilir. Bu, qrammatik cəhətdən yanlış, mənaca ədəbidir. Saygını gücləndirən elementdi. Çoxluğa deyilirsə, hər adama ayrı-ayrılıqda "siz" deyildiyinə işarədir.

Türk ailələrində ta qədimdən eşlər bir-birini təkcə adla çağırmaz, yanında "bəy", "xanım" "bəyim" epitetləri də olar.

Türkiyə toplumu əksərən "siz"lə danışmır. Ən çox ruslar "siz"ləyir. Dünyanın ən mədəni xalqı fransızlar sayılır. Onlar haqda belə bir yumor var: bir fransız hərəkətli (mələn, şorba) yemək yeyəndə boşqaba üz tutub deyir: "həyəcanlanmayın, sizi yeməyəcəm". İngilis dilində "sən" "siz" ayrıcalığı yoxdu. Hər ikisi eyni cür ifadə olunur: you.

Bütünlükdə hər bir dildə kübar ifadə forması üçün imkanlar genişdi.

Lütfən, zəhmət olmasa, buyurun - kimi kəlmələr deyəni də, duyanı da nəcibləşdirir.

- Pulun var sənin?
- Sənin yox, sizin.
- Pulun var sizin?

Biz buna gülürük. Ancaq bu, təkcə savadsızlığı deyil, mədəni davranışdan xəbərsizliyi ifadə edir.

"Siz" anlamca elə bir çağırışdı ki, onun üçün adam mütləq bir çox "sən" mərhələsini keçməlidi.

Ola bilər bir adam bizim üçün öncə "siz" olsun, sonra "sən", ən sonda SİZ.

Adam var "siz" deyəndə özünü naqolay hiss edir, utanır.

Yaponlar utancaqlığı pis tərbiyənin nəticəsi sayırlar. Yaxşı tərbiyə olunan adam boş yerə utanıb-çəkinmir. Özgüvəni yerində olur. Özgüvən ciddi amildir - insanı acgözlükdən, yekəxanalıqdan qoruyur.

"Siz"lə danışmaq ayıb bir şey deyil. Adama salam verən kimi dərhal "sən"ə keçmək ayıbdı. Çox yaxının olmayan birinə bu qədər ərkyana yanaşmaq onun sərhədini aşmaqdı. Bu, saygısızlıqdı.

**Bir-birinin sərhədini keçməyən adamların cəmiyyəti düzənli olur. Bütün ilişkilərdə belədi. Atatürk necə deyib - düzənin açarı saygıdır.**

# Sumqayıt cəbhəçiləri istefa verdilər

## Razi Nurullayev AXCP-də istefaların artacağını bəyan etdi

**AXCP-nin Sumqayıt şəhər təşkilatının bir qrup üzvü dünən partiyadan istefa verib. İstefa verənlər partiya sədrinin sabiq müavini Razi Nurullayevin formalaşdırdığı AXCP-yə qoşulduqları barədə bəyanat yayıblar. Bəyanatda Əli Kərimlinin apardığı diktator siyasəti pislənilib. Bəyanatı Şakir Məmmədov, Məmmədyar Məmmədov, Bəhrəm Qasımov, İmran Muradxanov, Mübariz Ağaməmmədov, Əvəz Məmmədov, Allahverdi Zeynalov, Rövşən Muradov və Elşən Muradov imzalayıblar.**



Qeyd edək ki, Əli Kərimlidən narazı cəbhəçilər Razu Nurullayev başda olmaqla ötən həftə AXCP-nin Etimad Qurultayının Təşkilat Komitəsini yaradıblar. Onlar Ə.Kərimlinin partiya sədrliyindən uzaqlaşmasını və partiyanın möhürünün onlara verilməsini tələb edirlər. Əks təqdirdə, onlar möhürü qanuni yolla Ə.Kərimlidən alacaqlarını bildiriblər.

**Sumqayıt cəbhəçilərinin istefa verib onunla birləşməsinə Razi Nurullayev münasibət bildirərkən qeyd etdi ki, Əli Kərimlinin rəhbərlik etdiyi qurumdan istefalar daha da artacaq**: "Bizə Əli Kərimlinin rəhbərlik etdiyi qurumdan axın kifayət qədərdir. İnsanlar artıq Əli Kərimli tərəfini AXCP hesab etmir. Ayın 19-dan bu yana hər gün 3-4 istefa ilə bizim yanımıza gələnlər olub. Bu gün Sumqayıtda fəaliyyət göstərən keçmiş hərəkatçılar bizim yaratdığımız AXCP-yə keçdiklərini bəyan etdilər. Bu davamlı olacaq. Biz hər gün bir neçə belə bəyanatların şahidi olacağıq. Elə olur ki, 4-5, 7-8 nəfər AXCP-dən istefa verib bizim yaratdığımız quruma keçdiklərini bəyan edirlər. Hətta AXCP-nin Ağstafa şöbəsindən 20 nəfər bizə qoşulduğunu bəyan etdi. Bu həftənin sonuna kimi dayaq sədrləri də bizim sıralarımıza qoşulacaqlar. Ağstafada Gənclər şöbəsinin, Məclisin sədri, 14 dayaq şöbəsi rəhbərləri bizə qoşuldular. Onlar qoşulma haqqında bəyanatlarını yaxın günlərdə imzalayacaqlar".

**R.Nurullayev onlara qarşı cəmiyyətin ümumi münasibətindən razı qalıb:** "Ümumi fikir çox müsbət oldu. Yalnız Əli Kərimlinin tapşırığı ilə ona xidmət göstərən adamlar bizə qarşı mübarizə aparmağa başladılar. Təhqirlər, söyüşlər yağdırdılar. Çünki AXCP hər zaman söyüş makinası kimi fəaliyyət göstərib. Bu cür tapşırıqlar birbaşa Əli Kərimlinin özündən gəlib. Çünki mən orada olanda da bununla bağlı fikirləri olub. Yəni Əli Kərimli və onun ətrafındakılardan başqa hər kəsin bizə münasibətləri müsbətdir. Biz medianın monitorinqini aparmışıq. 90 -95 faiz Azərbaycan mediası bizim lehimizə yazılar dərc edib. Cəmi 5 faizdən də az media, başda "Azadlıq" qəzeti olmaqla bizim əleyhimizə yazılar yazıb.

Bizim tutduğumuz yol çox düzgündür. Azərbaycan cəmiyyəti kifsəmiş, hiyləgərliyi və fitnəkarlığı üzlərinə çökmüş insanlardan, siyasətçilərdən təmizlənməlidir. Bu insanlar isə Əli Kərimlinin ətrafındakılardır. Bizim uğurlu işlərimizdən də biri odur ki, biz cəmiyyətə 4-5 uğurlu gənc təqdim etdik. Onlar da açıqlamaları və parlaq fikirləri ilə gündəmə gəlirlər. Biz eyni zamanda kadr yetişdiririk".

❑ **E.SEYİDAĞA**



# Ümid sənədir...

**Hüseynbala SƏLİMOV**

**Nə gizlədək? Hamımız Ermənistandakı proseslərə iki aspektdən maraq göstəririk. Bir tərəfdən bu ölkənin zəifləməsində, daha dərin böhrana düçar olmasında maraqlıyıq. O biri tərəfdən də hər dəfə ürəklərimizdə ümid yaranır ki, bəlkə erməni cəmiyyətində sağlamlaşmaya, sülhə və barışığa meyl yarana...**

Bu günlərdə Ermənistandakı etirazlardan süjetlər verirdilər. Orada gördüklərim məni daha ümidsiz duruma sürüklədi. Etirazçılar "miatsum!" deyə qışqırırdılar. Əvvəl zənn etdim ki, səhv edirəm. Bir də diqqət kəsildim və gördüm ki, yox, onlar həqiqətən də "miatsum!" deyirlər...

"Miatsum" ermənilərin Qarabağı Ermənistana birləşdirmək "ideya"sına deyilirdi. Bir daha internetdəki yazılara baxdım ki, bəlkə səhv edirəm? Amma gördüm ki, yox, elə internetdə də belə yazılıb...

Adi insanlarla bağlı psixoloji qənaətlərin bütöv cəmiyyətlərə şamil edilməsi həmişə bir az mübahisə doğurub. Psixoloqlar bunun əleyhinə bir xeyli dəlillər gətiriblər. Ən böyük irad odur ki, əgər fərd xəstədirsə, o halda onu həkim nəzarətinə götürmək olar. Bəs cəmiyyət xəstə olarsa, onda nə etməli? Bəli, elə doğrudan da ciddi arqumentdir. Amma bu, yenə də E.Fromma "Sağlam cəmiyyət" kitabını yazmağa mane olmayıb. Qərəz, belə kitabın yazılması bir daha göstərir ki, fərdi psixoloji patologiyalar olduğu kimi kollektiv patologiyalar da mövcuddur. Psixoloqlar nə qədər istəsələr, bununla bağlı və ya bunu inkar etməklə bağlı mübahisə edə bilərlər...

Amma mən Şimali Koreyanın cəmiyyətini sağlam cəmiyyət hesab edə bilmirəm. Bəlkə də bu ölkədə insanlar sadəcə, qorxurlar. Amma onların öz dahi prezidentlərinin ölümü vaxtı necə ağlamasına, özü də kütləvi şəkildə və birlikdə ağlamasına baxanda inana bilmirəm ki, onlar bunu yalnız qorxudan edirlər...

İndi erməni cəmiyyəti haqda da eyni sözləri demək mümkündür. Niyə gərəkdir bu "miatsum" çağırışları? Yetmədimi, bəs etmədimi bu vaxta qədər tökülən qanlar?..

Elə sonuncu prezident seçkisi zamanı da eyni mənzərənin şahidi olmuşduq.

O vaxt da Ermənistanın müxalifəti Dağlıq Qarabağın müstəqilliyini tanımağa çağırırdı. Ona görə də elə onda da bir sual heç də ritorik görünmürdü: kim daha yaxşıdır? İndiki Ermənistan hakimiyyəti, yoxsa ona opponentlik edən və Dağlıq Qarabağın müstəqilliyini tanımağa çağıran müxalifət?..

Əslində məsəl var, deyirlər ki, ilanın ağına da lənət, qarasına da. Amma bizim adamlarımız arasında elələri var ki, hələ də düşünürlər ki, bütün bunlar heç də erməni xalqının deyil, onu idarə edən siyasi mafiyanın işidir...

Fəqət, belədirmi? İnanın, mən də çox böyük bir sevinclə razılaşardım ki, kaş, elə belə də olsun! Di gəl ki, belə deyil axı! Elektrik tariflərinin dəyişdirilməsi tələbilə küçələrə çıxan və guya ki, öz hökumətinə etiraz edən bu etirazçılar "miatsum! miatsum"-deyə səs salır, hökumətdən Dağlıq Qarabağın tanınmasını tələb edirlər...

Əgər bu millətin və bu cəmiyyətin qanında azcıq da olsa, sülhə və barışa meyl olsaydı bu qırğına, müharibəyə çoxdan son qoyulardı...

Amma yoxdur belə şey. "Qarabağı Ermənistana verəcəklər!" - az qala otuz ildir ki, bu insanlar belə deyir. Amma bir məsələyə aydınlıq gətirmirlər ki, axı siz o Qarabağla nə edəcəksiniz? Az qala bütün dünyaya səpələnmisiniz, imkan tapan kimi Ermənistandan qaçırsınız! Qarabağ sizin nəyinizə lazımdır? Bəlkə yetər?..

Amma yox, yetmir... Hələ də davam edir. Amma biz hələ də düşünürük ki, yox, aranı qarışdıran, silah-sursat verən, "durma! vur!" deyənlər var. Təbii ki, var. Bunsuz mümkün deyil. Amma ermənilərin özlərinin də qanında var həmin bu nifrət, kin-küdurət...

Bəli, ilk baxışda demək olardı ki, adi sosial etirazdır. Hətta adi siyasi etirazdır.

Amma yox, bunlar "miatsum!"- deyə bağırırlar...

Ona görə də mən bu etirazlardan heç nə gözləmirəm. Onlara marağım da yoxdur və düşünərəm ki, "müdrik erməni xalqı" haqda nağıllarla baş tovlamağa da elə bir lüzum yoxdur. Hər şey göz önündədir: onlar hələ də, bu münaqişənin lap əvvələrində olduğu kimi "miatsum!" qışqırırlar...

**Elə bu səbəbdən də ümid özümüzədir. Lap elə bir gözəl şeirdə deyildiyi kimi: Ümid sənədir ancaq, Azərbaycan əsgəri!..**

# YAP seçki siyahısını nə zaman açıqlayacaq?

## Hakim partiya prezident sərəncamını, müxalifət isə YAP-ı gözləyir

**Noyabrın 1-də keçiriləcək parlament seçkilərinə üç ay-dan az vaxt qalsa da, hələlik ölkədə seçki ab-havası hiss olunmur. Müşahidəçilərin fikrincə, bunun bir səbəbi də hakim partiyanın özünün seçki siyahısını elan etməyə tələsməməsidir. YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov "Yeni Müsavat"a müsahibəsində demişdi ki, siyahı bu həftə açıqlanacaq.**

**Seçkiyə rəsmi start veriləndən sonra YAP-ın siyahısının da elan olunacağını deyən S.Novruzov hakim partiyanın bütün partiyalardan namizəd irəli sürəcəyini qeyd edib. "YAP keçən seçkilərdə bəzi dairələrdən namizəd irəli sürməmişdi. Respublikada tanınmış bir sıra ziyalılar var idi ki, onlara, o cümlədən dövlətçilik mövqeyində olan bir sıra siyasi partiya rəhbərlərinə alternativ verməmişdi. Bu gün də bu məsələlər müzakirədədir, amma son qərar İdarə Heyətinin olacaq"-YAP funksioneri bildirib. Lakn həftənin ilk günü hakim partiya namizədlər siyahısını açıqlamadı. Bu barədə S.Novruzovun mövqeyini öyrənmək niyyətimiz isə hakim partiyada gərgin seçki hazırlıqlarının getməsi səbəbindən mümkün olmadı.**

Yeri gəlmişkən, S.Novruzov demişdi ki, son qərar partiya rəhbərinin və İdarə Heyətinin olacaq və partiya rəhbərliyindən başqa siyahı barədə heç kimin müfəssəl məlumatı yoxdur.

Bəzi mənbələr xəbər yayıb ki, seçkiqabağı qeyri-rəsmi təbliğatın gücləndiyi bir zamanda parlamentdə ən çox deputat mandatına sahib olan hakim partiya çoxdan bəri gözlənilən və bir çoxlarının həyəcanına səbəb olan sürprizlərini elan edəcək. Modern.az saytının əldə etdiyi məlumata görə YAP-ın bu həftə ərzində seçki siyahıları dəqiqləşdiriləcək. Bu siyahıda isə xeyli sürprizlər olacaq. "Bir çox YAP üzvlərinin diqqətlə, maraqla, gözlədiyi seçki siyahıları bəzi vəzifə sahibləri üçün xüsusilə həyəcanvericidir. Belə ki, bundan əvvəlki yazılarımızda da qeyd etdiyimiz kimi, YAP bu seçkilərdə əvvəlkilərdən fərqli olaraq rektor və digər vəzifə sahibi olanların deputatlığa namizədliyini irəli sürməyəcək"-deyə, xəbərdə bildirilir. Məlumata görə, YAP-ın seçki siyahılarını dörd gözlə açıqlanmasını istəyənlərdən biri də parlament müxalifətidir. Çünki YAP tərəfindən 125 dairənin hamısından deputatlığa namizədlərin verilməsi Milli Məclisdə olan digər partiyalara güzəştin edilməməsi anlamına gəlir. Buna görə də parlamentdəki rəqiblərinin arzu və istəklərinə sədd çəkən hakim partiyanın seçki siyahılarını hamı gözləyir. "Bəlkə deputatlığa namizədlər siyahısı 125 dairəni əhatə etmədi" kimi ümidlərlə yaşayan parlament müxalifətinin liderləri də büruzə verməsələr də, şüurlarının dərin qatlarında YAP-ın hədəf və istiqaməti haqqında düşünürlər.



S.Novruzov parlament seçkilərinə hazırlıqla bağlı AzərTac-a müsahibəsində xarici müşahidəçilərlə bağlı məsələyə münasibət bildirib. "Bütövlükdə, seçki prosesinin vacib elementlərindən biri də müşahidəçilik institutudur. Məlum olduğu kimi, Azərbaycan dövləti daim keçirilən seçkilərin geniş beynəlxalq müşahidəçilər missiyaları tərəfindən izlənilməsinə maraqlıdır. Məhz buna görə də müvafiq strukturlar tərəfindən bir sıra beynəlxalq təşkilatlara, ölkələrin parlamentlərinə və digər qurumlara seçkiləri izləmək üçün dəvətlər göndərilir. Ümumiyyətlə, Azərbaycanda seçkiləri müşahidəçi etmək üçün prosedurlar çox sadədir. Bunun nəticəsində də hər seçkini minlərlə müşahidəçi izləmək imkanı qazanır. Məsələn, fakt üçün deyim ki, 2013-cü il oktyabrın 9-da keçirilən prezident seçkilərini on minlərlə yerli, 1400 nəfərə qədər isə beynəlxalq müşahidəçi izləmişdi. Belə ki, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, Müstəqil Dövlətlər Birliyi, TürkPA, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, ATƏT Parlament Assambleyası və digər bir sıra beynəlxalq qurumların müşahidə missiyaları ölkəmizdə keçirilən seçkiləri izləyirlər". S.Novruzov deyib ki, YAP ölkədə keçirilən bütün seçkiləri daha çox beynəlxalq müşahidəçilərin izləməsinin tərəfdarıdır: "Nəzərinizə çatdırım ki, Azərbaycanda keçirilən seçkiləri YAP-ın üzv olduğu və əməkdaşlıq etdiyi siyasi partiyaların birləşdiyi beynəlxalq qurumlar da müşahidə edirlər. Bunlardan Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP), Latın Amerikası və Karib dənizi ölkələri siyasi partiyaları təşkilatının (COPPPAL) adını çəkə bilərəm. Biz qarşıdan gələn seçkilərdə də bu təşkilatların seçkiləri izləməsinin tərəfdarıyıq".

**Qeyd edək ki, seçki kampaniyasına start verilməsi üçün prezident sərəncam verməlidir. Konstitusiyaya görə, Milli Məclisə seçkilərin təyin edilməsi ölkə prezidentinin səlahiyyətindədir. Ölkə başçısı səsvermədən ən azı 60 gün öncə seçkilərin vaxtını təyin edir. Bu sərəncamın verilməsi də, təxmini hesablamalara görə, avqustun sonuna düşür. Sərəncam rəsmi mətbuatda dərc olunduqdan dərhal sonra iki aylıq seçki kampaniyası dövrü başlayır. Yəni namizədliyin irəli sürülməsi, imzatoplama, qeydiyyat, təbliğat və sairə bu iki ayda həyata keçirilməlidir.**

**Cavid TURAN**

# "Ümidin ümidləri artır"

## Rəfail Tağızadə: "Ötən seçkilərin acı nəticələri seçicilərdə seçkiyə qarşı pessimist ovqat yaradıb"

**Seçkilərə start verilməsinə az bir müddət qalıb. Seçkiyə ciddi hazırlaşan siyasi təşkilatlardan biri də Ümid Partiyasıdır. Namizədliyi partiya tərəfindən 31 saylı Suraxanı ikinci seçki dairəsindən irəli sürüləcək Ümid Partiyası Ali Məclisinin sədri Rəfail Tağızadə seçki hazırlığı və seçki mühiti ilə bağlı partiyanın Mətbuat Xidmətinin suallarını cavablandırıb. Müsahibəni oxuculara təqdim edirik:**



***- Rəfail bəy, seçkiyə hazırlıq işləri necə gedir?***

-Seçki Məcəlləsində edilən sonuncu dəyişiklikdən sonra seçki kampaniyası və təbliğat üçün ayrılmış vaxtın məhdudluğu bir daha göstərdi ki, ayrılan zaman çərçivəsində ancaq texniki işləri görmək mümkündür. Biz hər dəfə olduğu kimi, bir seçki qurtaran kimi növbəti seçkiyə hazırlaşırıq. Bu dəfə də Bələdiyyə seçkiləri yekunlaşan kimi parlament seçkilərinə hazırlığa başladıq. Namizədlər imkan və resursları daha çox olan, ərazisinə bələd olduğu dairələrdən namizəd olacaqlarını bəyan etdilər. Hazırlıq prosesi mərhələlərə bölündü. Hər mərhələnin yekununda nəticələr müzakirə olundu. Bu gün üçün nəticələri müsbət qiymətləndirmək olar. Avqustun sonunda, seçkiyə start verilən ərəfədə sonuncu hazırlıq işlərinin yekunu müzakirə ediləcək. Artıq hər namizədin imza toplayacaq və müşahidə aparacaq şəxslərinin siyahısı hazırdır. Məntəqələr və binalar (kəndlər, bələdiyyələr) üzrə məsul adamlar müəyənləşdirilib. Bu da seçkiyə start verilən anda ilkin mərhələ üçün hazır olduğumuzu göstərir.

***- Siz özünüz namizəd olduğunuz dairədə vəziyyət necədir?***

- Mənim nmizədliyim partiya tərəfindən 31 saylı Suraxanı ikinci Seçki Dairəsindən irəli sürüləcək. Bu dairəni ona görə seçdim ki, 25 ildir bu ərazidə yaşayıram. Ərazinin əhatə etdiyi Qaraçuxur - Yeni Günəşlinin seçicilərini yaxşı tanıyıram. Problemlərinə bələdəm, çünki problemlərimiz eynidir. O problemlər elə mənim də problemimdir. Seçicilərin nələr istədiklərini yaxşı bilirəm. Daima ünsiyyətdə oluruq. Problemləri müzakirə edirik. Seçicilər indiyədək bu dairədən Milli Məclisdə oturan, bu dairə ərazisində yaşamayan, problemlərini bilməyən, ötən illər ərzində onlarla ünsiyyətdə olmayana səs verməyəcəklərini bildirirlər. Onlar o namizədi Milli Məclisdə görmək istəyirlər ki, istədikləri vaxt onu görə bilsinlər. Onların yanında olsun. Necə deyərlər, əlləri çata bilsin. Problemləri müvafiq qurumlara çatdırılsın, istəkləri Milli Məclisdə səsləndirilsin.

İnanırlar ki, bu dəfə onların arzuları gerçəkləşəcək.

***- Seçkiyə az müddət qalır, amma seçki ab-havası hələ də hiss olunmur. Az vaxtda nələrisə etmək mümkündürmü?***

- Doğrudur, seçkiyə az müddət qalmasına baxmayaraq seçki əhval-ruhiyyəsi hiss olunmur. Ötən seçkilərin acı nəticələri seçicilərdə seçkiyə qarşı pessimist ovqat yaradıb. Seçicilərin bəzilərinin bu ilki seçkidən, ümumiyyətlə xəbərsizdirlər. Seçki mühitinin olmaması ölkədə seçkiyə münasibətin göstəricisidir. Insanlar güvənsizdirlər. İqtidar vəziyyətin bu formada davam etməsində maraqlıdır: Seçicilər seçki məntəqəsinə az gəlsinlər və onlar da istəklərinə nail olsunlar, istədiklərini deputat edə bilsinlər. Bəzi müxalifət partiyalarının seçkiyə qatılmaması da cəmiyyətdə seçkiyə olan ümidi bir daha azaldır.

Seçki demokratik prosesin əsas prosedurlarından biridir. Hamımız ölkənin demokratrikləşməsini istəyirik. Illərdi bu yolda mübarizə aparmış partiyalar bu mübarizədə daima öndə olmalıdırlar. Onlar demokratikləşmənin lokamativləridirlər. Onsuz da sonda bütün ağırlıqlar bizlərin üzərinə düşəcək. Biz bu prosesi sonadək aparmalıyır. Əsas məqsədlərimizdən bir də insanların konstituson hüquqlarından, seçki hüququndan istifadəsinə yardımçı olmaqdır. Azərbaycanın demokratikləşməsinin mütləq seçkilərdən keçəcəyinə və bunun mümkünlüyünə əminlik yaratmaqdır. Gec, ya tez bu olacaq. Proses dayandıqca ona yenidən başlamaq çətin olur. Ona görə də biz bu prosesi sonacan aparmalıyıq.

Bizə ümid verən, inam yaradan məsələlərdən biri də son zamanlar gənclərin həm namizəd olmaları, həm də seçki prosesinə aktiv şəkildə qoşulmalarıdır. Deməк ki, hələ hər şey itirilməyib. Ölməyib. Sadəcə öləziyib. Və artıq dirçəlmək ərəfəsindədir. Bunlar bizə daha böyük ruh verir. Gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Dövlətin, millətin gələcəyidir. Onlar nə istədiklərini yaxşı bilirlər. Son vaxtlar partiyamızın sıralarına qoşulan, namizəd olmaq istəyənlərin sayı get-gedə artmaqdadır.

Gənclər öz istəklərinə ağıllı şəkildə qovuşmağın yollarını bildikdə özləri və dövlət üçün lazım olanları mütləq əldə edəcək.

Gələcəyə böyük inamla baxan belə gəncləri görəndə qürur hissi keçirirsən. Ümidin ümidləri artır.

## Nə qədər ki, belə davam edəcək, bizdə nə inkişaf olacaq, nə də...



Həcər ABBASLI
Ümid Partiyası Gender Bərabərliyi şöbəsinin müdiri

### Azərbaycanda nazirin, idarə rəisinin, hətta MİS rəisinin belə hansısa bir işdə özünü günahkar bilib vəzifədən könüllü getməsinin nəinki ənənəsi, heç təcrübəsi də yoxdur

**Tutduğun vəzifədən bu və ya digər səbəbdən öz xoşunla ayrılmaq bir mədəniyyət göstəricisidir. Uğurların, müvəffəqiyyətlərin olduğu yerdə, uğursuzluqlar, gözlənilməz nəticələr də yaşanmalıdır ki, bunlar da qaçılmazdır. Bu halda isə ən yaxşı çıxış yolu istefadır. Yəni əgər bu işi mən bacarmıramsa, bacara biləcək birisinin də yolunu bağlaya bilmərəm.**

Azərbaycan məmurlarının ən mənfi xüsusiyyətlərindən biri də yəqin ki, onlarda istefa mədəniyyətinin zəif olmasıdır. Siyasilərimizin istefaya meylli olmaması reallıqdır. Nəinki siyasətçilərimizin, ümumiyyətlə, ən xırda bir məmurdan yüksək çinli məmura kimi heç bir vəzifə sahibi zamanı gəldiyində istefaya getməyi bacarmır. Analoji vəziyyət partiya rəhbərlərində də özünü göstərir.

Komandirlərin tabeliklərindəki əsgərlərlə kobud, zorakı davranışları, maddi tələbləri, bir gəncin hərbi xidmətə çağırılandan cəmi 1 ay sonra xəstəlikdən dünyasını dəyişməsi, səhiyyəyə dövlət vəsaitinin ildən-ilə artdığı bir halda vətəndaşlarımızın İran həkimlərinin ümidinə qalması, dərman satışındakı monopoliya, hətta poliklinikaların da pulsuz adamların üzünə baxmaması, orta məktəblərimizin və ali təhsil müəssisələrimizin valideyn və uşaqların təsəvvüründə bazar psixologiyası formalaşdırması, nəqliyyat sistemindəki biabırçılıqlar, cəzaçəkmə müəssisələrində məhbusların işgəncələrə məruz qalması, məhbusların intihara əl atması bütün bunlar yüksək vəzifəli məmurların kreslolarını təhvil verməsinə heç cür təsir göstərə bilmir. Hansısa neqativ hal, hətta bədbəxt hadisə barədə də birbaşa nazirlər deyil, adətən mətbuat xidmətlərinin rəhbərləri, istisna hallarda nazirlik və idarələrin şöbə müdirləri izahat verir. Nazirlər ictimaiyyətə nəinki hesabat, bəzən heç rəsmi açıqlama da vermirlər. Baş verən neqativ hadisələr barədə ancaq bütün hallarda yalnız təkzib yolunu tutmaq, nöqsanları etiraf etməmək və nəzarətçilər səviyyəsində cəzalandırmalar həyata keçirmək yüksək vəzifəli məmurun özünü heç nədə təqsirli bilməməsini təsdiqləyir. Hansısa xəstəxanada da bir neqativ hal aşkarlananda, cəzalandırmalar xadimələrdən o yana keçmir.

**Ümumiyyətlə, Azərbaycanda nazirin, idarə rəisinin, hətta MİS rəisinin belə hansısa bir işdə özünü günahkar bilib vəzifədən könüllü getməsinin nəinki ənənəsi, heç təcrübəsi də yoxdur. Nə məslədirsə, bizim nazir və məmurlar onlara tapşırılan vəzifədə özlərini alternativsiz görürlər. Belə qüsurlu dünyagörüşün formalaşmasının nəticəsidir ki, istefa mədəniyyəti heç cür formalaşa bilmir. Gürcüstan digər sahələrdə olduğu kimi bu sahədə bizdən irəlidədir. Son illərdə orada bir neçə dəfə bu cür istefalar baş verib. 2012-ci ildə Gürcüstada Cəzaların İcrası naziri Xatuna Kalmaxelidze həbsxanada baş verən işgəncə hallarının mətbuatda yayılmasından sonra istefa verib. Onlar məntiqli şəkildə hesab edir ki, onun tabeliyində olan sektorda neqativ hal baş veribsə, bu, birbaşa onun günahıdır. Deməli, idarəetməni düzgün qurmayıb, kadrları düzgün seçməyib, düzgün təyinatlar etməyib, haradasa səhlənkarlığa yol verib, nöqsanları vaxtında görüb araşdırmayıb, qarşısını almayıb. Ailədə hansısa uşağın pis davranışına görə ata-ana məsul tutulur və "valideyn tərbiyə verməyib" iradları səslənir, eləcə də nazirlik və idarələrdə əməkdaşların yaxşı çalışmamasının günahkarı ilk növbədə nazir, idarə rəisi hesab olunmalıdır. Bizdə isə tərsinədir, nazir də, idarə rəisi, hətta ən kiçik məmur da işdəki nöqsana görə, özündən başqa hamını, hətta xadiməni də günahkar çıxara bilir. Nə qədər ki, belə davam edəcək bizdə nə inkişaf olacaq, nə də istefa mədəniyyəti formalaşacaq.**

**Bəzən insanları bürclər, doğulduğu illərə uyğun kateqoriyaya bölürlər. Adətən belə söyləmlərə inanmarıq. Çünki insanlar böyüyüb boya-başa çatdığı mühit vasitəsilə dəyişə bilir, ətrafındakıların, ailədə - ata, ana, dayı, əmi xala, baba və ya nənənin xasiyyətini götürür. Amma kim olursansa ol, həyatda nail olmaq istədiklərinə ədalətlə qərar verməli, haqla addımlamalı, sağlam mübarizə aparmalısan.**



Tamilla MƏMMƏDOVA (QULAMİ)
Ümid Partiyası Ali Məclisi sədrinin müavini

# Ədalətli cəmiyyət və qadın

**Ədalətin dostu tək məhkəmə deyildir.** Bir bütün olaraq dövlət özü vətəndaşlarına qarşı ədalətli olmalıdır. Hansı qanunu çıxarırsa, çıxarsın, ədalət ölçülərinə uyğun davranması gərəkdir. Cinayətkarlara qanun uyğulayarkən, siyasət yürüdərkən, ölkənin daxili və xarici siyasətini bəlirləyərkən, keçirilən seçki proseslərində toplumun tələblərinə cavab verən ədalət prinsipini hər zaman üstün tutmalıdır. Ona görə də ədalət deyincə ağla sadəcə yarğılanma, məhkəmə, hakim, vəkil, müttəhim anlayışının gəlməsi doğru deyil. Ədalət heykəlinin sağ əlindəki qılınc, yeri gələndə ədalətin dağıdılmasında zor tətbiq olunmasını, sol əlindəki tərəzi isə lazım gələrsə, həssasiyyətin simvoludur. Qılınc və tərəzinin yerləri əsla qarışdırılmamalıdır.

**Sistem demokratik bir şəkildə və ədalət tələbinə uyğun olaraq qurulmamışsa, vətəndaşın güvənliyi əksiksiz və qərarlı şəkildə qorunmursa, qısacası, əgər cəmiyyət bütün bu sistemə vərdiş edilməmişsə, ədalət adının, ölkədə məhkəmələrin olmasının heç bir önəmi yoxdur.** Hakimiyyət hansı sistemdə olursa olsun, o ölkədə ədalətdən bəhs oluna bilməz.

**Siyasi partiyalar, təşkilatlar demokratiyanın cəmiyyət və hakimiyyət arasındakı körpünü quran ən təməl qurumlardır.** Bu bağın gücləndirilməsi və demokratiyanın tam anlamıyla prosedur və vərdiş olaraq həyata keçirilməsi siyasi təşkilatlarda qadın və kişilərin bərabər, ədalətli və dəngəli şəkildə təmsil edilməsiylə mümkündür. Son zamanlarda Azərbaycanda sosial, siyasi, iqtisadi və mədəni sahələrdə də qadınların yer alması get-gedə daha açıq şəkildə görünməyə başlayıb və bu da sevindirici haldır. Bu durum ictimai-siyasi həyatda qadınların aktivliyini göstərməklə yanaşı həm də demokratik təmsilçilik və bərabərliyin və ədalətin təsis edilməsində böyük rol oynayır. Təmsil etdikləri partiyaların, qurumların içindən cəmiyyətə təqdim olan qadınların baxış açısı, Azərbaycanda siyasətin tərzinin, biçiminin və rənginin dəyişəcəyinin xəbərçisidir.

**Danılmaz faktdır ki, demokratiya təkcə institusional kateqoriya deyil, o ilk növbədə həyat və düşüncə tərzidir.** Şübhə etmirik ki, bu sahədə qadınların da əldə edəcəyi nailiyyətlərlə yanaşı görüləsi işləri də çoxdur. Çünki bu yolda görülən tədbirlər həm ölkəmizin beynəlxalq öhdəliklərinin yerinə yetirilməsinə yönəlib, həm də öz milli maraqlarımıza əsaslanır. Kimin hansı təşkilatı təmsil etməyindən asılı olmayaraq, qarşıya çıxan problemlərin öhdəsindən gəlmək üçün hüquqi dövlət quruculuğunda da bir ailə olaraq dövlətçilik və millətçilik adına əl-ələ verib işləmək əsas vəzifə borcu olmalıdır. Bir ölkədə vətəndaş güvənlidirsə, əsl vətəndaş kimi formalaşıbsa deməк ki, o ölkədə haqq və ədalət öz yerindədir.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Qanunla müdafiə olunan peşələr

Zamin HACI
zaminhaci@gmail.com

“Sakitləşin, cənablar, sakitləşin. Qaydalara əməl edəcəyik. Roma imperiyası - bu bizik. Əgər biz sifətimizi itirsək, imperiya başını itirəcək. İndi panika vaxtı deyil! Öncə gəlin səhər yeməyi yeyək. İmperiya dərhal yüngülləşəcək”

**(Alber Kamyu, “Kaliqula”)**

**Dövlət başçısının “Nefti unudun” tapşırığından sonra uca millətimizin qan yaddaşı oyanmağa başlamışdır. Örnək üçün, AzDrama teatrında iki xalq artisti bir-birinin qanını tökmək üçün davaya girişibdir. Hətta biri o birinə “atvyorka” (vintaçan) çıxarmışdır. Tərslikdən xalq artistlərinin ikisinin də adı Ramizdir! Vay-vay... Amma əməkdar artistlər araya girib, nəticədə qan səhnəyə axmayıbdır.**

Ora çox mistik yerdir. Heç yadımdan çıxmır, 2003-cü ilin 12 dekabrından sonra AzDramanın qabağından düz qırx gün qara bayraq asıldı. Korifey sənətkarlarımız öz dramatik kədərlərini bu səhnə tərtibatı ilə üzə çıxarmışdılar.

Yeri gəlmişkən, mən kiçik araşdırma apardım, sən demə xalq artisti başqa xalq artistinin gözünün altını göyərdib boğazına cırmaq atanda araya məhz əməkdar artistin girməsi məqsədəuyğun olmuşdur. Çünki subordinasiyaya, həmçinin konstitusiyaya görə iki xalq artisti boğuşanda onları ancaq əməkdar artist ayıra bilər. Ta əməkdar incəsənət xadimi, 1-ci dərəcəli mədəniyyət işçisi, nə bilim, AzTV-nin solisti-zad araya girsin, belə şey qəti olmaz! İki xalq artistinin arasına ancaq üçüncü xalq artisti, bəd ayaqda əməkdar artist girə bilər.

Başqa bir dava isə məhkəmədə gedir. Bir qadın başqa qadınları Dubaya aparıb, orda fahişə işində çalışdırıb, lakin pullarını verməyib. Gəlin həmin məhkəmə iclasından bir səhnəciyi oxuyaq. Çox maraqlıdır: “Məhkəmədə qeyd olunub ki, istintaq materialına əsasən F. (adları özüm sildim, məncə jurnalist etikasına görə belə adları tam yazmaq olmaz - Z.H.) 2004-cü ildən bu işlə məşğul olub: ”Dubaydan öncə Türkiyəyə gedib-gəlməyim, orada qədim peşə ilə məşğul olmağım, hamısı qeyd olunub". F.B. bildirib ki, G-dən halal pulunu istəyir: “Ondan tələbim budur ki, 6 aylıq işimin pulunu versin, zəhmət haqqımı qaytarsın. Menecerlə bu mənim pulumu yeyiblər”. Hakim bildirib ki, fahişəlik qanunda müdafiə olunan peşə deyil, buna görə də məhkəmə onun vəsatətini qəbul edə bilməz: “Bu məsələni özünüz həll edərsiniz”. Hakimin hazırda bu işlə məşğul olub-olmaması haqda sualına F.B. belə cavab verib: “Xeyr, cənab hakim, özünüz də yoxlaya bilərsiniz” (qafqazinfo.az).

Görün nə gözəl dialoq imiş. Əlbəttə, həyat özü belənçik səhnəciklər qoyanda xalq artistləri bekarçılıqdan dalaşmağa məcburdur.

Şabran rayonunda isə sünnət toyundan sonra şadlıq sarayına borclu qalan kiçik bəyin atası obyektdə özünün... qayınanasını girov qoymuşdur. Bir gün sonra 1000 manat (min manat) borcu gətirən ata qayınanasını azad edərək aparmışdır. Bəlkə də əməliyyatda Milli Ordumuzun hissələri iştirak eləmişdir. Zarafat edirəm, ordumuz Qarabağda vacib işlərlə məşğuldur.

Görün nənələr hansı fədakarlığa gedirlər! Nənə nəvəsinin sünnət mərasimini, el diliylə desək, “kişiyə çevrilmə” ayinini yola vermək üçün hətta əsir düşməyə hazır imiş. Belə nənələri olan vətən basılmaz! Həmin kişi qırığı isə böyüyəndə yüksək qürurla, muğam təntənəsi ilə, milli-mənəvi dəyərlərimizlə deyə bilər: “Mənim sünnətimdə nənəmi girov götürmüşdülər!”. Necə romantik hadisədir. Heç Almaniyada belə olmur. O üzdən xaraba qalıb.

Bütün bunlara baxmayaraq Bakıda sabitlik hökm sürən ərazi də var. Bu, zoopark imiş. Bəli, təəccüblənməyin, zooparkda müşahidə aparan əməkdaşımız heyvanların ölüvay şəkildə ora-bura yıxıldığını görüb müdirə hücum eləmişdir, heyvanat bağçasının müdiri isə görün nə qızıl xırdalayıbdır: “Bilmirəm, heyvanlara kim hansı gözlə baxır. Hava istidir, insanlar özləri də halsız görünür, bu təbiidir. İsti havada heyvanlar yataq otaqlarında yatır, su içir, kölgədə dincəlir. Bəlkə insanlar fikirləşir ki, vəhşi heyvandırsa, mütləq aqressivlik nümayiş etdirməlidirlər”.

**Doğrudan da zooparka gedən bəzi yaramaz uşaqlar heyvanları çubuqla dürtmələyir, daşla vurur, onları oyatmağa çalışırlar. Halbuki, o heyvanlar qəfəsi qırıb həmin uşaqların valideynlərini parçalasalar bəlkə çox valideyn ərindiyindən yerindən durmaz. İndi aslan, ayı, meymun, pələng, quzğun və sairə yeyib doyubsa, nə üçün heyvanlıq nümayiş etdirməlidir? Aqressivlik heç kimə yaraşmır. Bizim hamımızın bir vətəni var.**



# “Putinin devriləcəyi haqda deyilənlər real deyil”

## **Şahin Cəfərli:** “Nə qədər ki, əhali arasında nüfuzu və güc strukturlarında dayaqları qalır, onu "QKÇP"yə bənzər hansısa saray çevrilişi ilə iqtidardan uzaqlaşdırmaq mümkün olmayacaq"

**Qərb mətbuatında növbəti dəfə Putinin devriləcəyi iddiaları ilə bağlı yazılar yazılmağa başlayıb. Bu dəfə ABŞ-ın nüfuzlu “Forbes” jurnalı Kremldə Putini devirmək üçün plan hazırlandığı barədə sensasion məqalə dərc edib.**
**Virtualaz.org saytının xəbərinə görə, jurnal yazır ki, Putinin siyasətinin uğursuzluqları, iqtisadi siyasətin gətirdiyi fəlakət qorxusu, Krımı işğalı nəticəsində Rusiyanın üzləşdiyi embarqolar və itirdiyi milyardlar ölkənin gələcəyi ilə bağlı ümidsilik yaradır.**

Məqalədə deyilir ki, Putin hakimiyyətinin sonunun yaxınlaşdığını çoxları düşünür, lakin bunun nə vaxt baş verəcəyi qaranlıq qalır. Seçilmiş prezident olaraq Putin ya postundan gedəcək, ya da fizik mövcudluğunu dayandıracaq.

Jurnalın məqaləsində Putinin mümkün varisinin məhz onun yaxın ətrafı ərəfindən seçiləcəyi, dolayısı ilə Rusiyada saray çevrilişi hazırlanacağı iddia olunur. Qeyd edək ki, bu cür iddialar ilk dəfə deyil ki, ortaya atılır. Ancaq indi, yəni Rusiya ətrafında “sakitliyin” hökm sürdüyü bir zamanda Putinin devriləcəyi xəbərlərinin dövriyyəyə buraxılması təsadüfi araşdırma nəticəsi ola bilməz.

**Siyasi şərhçi Şahin Cəfərli**nin fikrincə, vaxtaşırı Qərb mediasında yer alan bu tip yazılar, iddialar, ehtimallar vaxtaşırı Qərb mediasında yer alsa da, bunun real informasiya, yoxsa məqsədli dezinformasiya olduğunu müəyyənləşdirmək çox çətindir: “Ola bilər ki, Qərb xüsusi xidmət orqanlarının əlində Kremldə baş verənlərə dair məlumatlar var və bu məlumatlar zaman-zaman müəyyən məqsədlərlə mediaya sızdırılır. Yaxud da, bu tip dezinformasiya xarakterli yazıları qəsdən mediaya ötürərək Vladimir Putinin yaxın ətrafında qarşılıqlı şübhə və etimadsızlıq yaratmaq, eyni zamanda, bu informasiyaya veriləcək reaksiyaları yoxlamaq məqsədi də güdülə bilər”.

**Ş.Cəfərli deyir ki, yazıda dəqiq olan məqamlar Rusiya iqtisadiyyatının hazırkı durumunun təsviri ilə bağlı olanlardır. Ekspertə görə, həqiqətən də Rusiyada iqtisadi tənəzzül qarşısıalınmaz mərhələyə qədəm qoyub və qlobal tendensiyalar onu göstərir ki, büdcə gəlirləri enerji ehtiyatlarının qiymətindən asılı olan dövlətləri, ən çox da Rusiyanı çox çətin günlər gözləyir. Lakin ekspert bu prosesin çevrilişə gətirəcəyini inandırıcı saymır:** “İqtisadi böhranın dərinləşməsi və 90-cı illərdə olduğu kimi, əhalinin gündəlik həyatına ciddi şəkildə təsir göstərməsi Vladimir Putinin xalq arasında reytinqinin azalmasına gətirib çıxara bilər. Lakin hələlik Putinin ictimaiyyətdə dayaqları güclüdür və onun durumu ölkə iqtisadiyyatının vəziyyəti qədər pis deyil. Nə qədər ki, Putinin əhali arasında nüfuzu və güc strukturlarında dayaqları qalır, onu ”QKÇP"yə bənzər hansısa saray çevrilişi ilə iqtidardan uzaqlaşdırmaq mümkün olmayacaq".

**Ş.Cəfərliyə görə, indi əsas sual Putinin növbəti seçkilərə qatılıb-qatılmaması ilə bağlıdır. Ekspertin fikrincə, Putinin seçkidə iştirak qərarına bir çox amil, o cümlədən dünya enerji bazarındakı durum və bunun Rusiya iqtisadiyyatına təsirlərini, eləcə də Ukrayna məsələsi təsir edəcək**: “Şübhə yoxdur ki, enerji ehtiyatlarının qiymətlərinin aşağı həddə qalması və daha da aşağı düşməsi Rusiya iqtisadiyyatında kollapsa səbəb ola bilər. Neftin qiymətlərinin yaxın bir neçə il ərzində ciddi yüksəlməsi gözlənilmir, bunu artıq neft ölkələrinin rəhbərləri də etiraf edirlər. İranın hələ bazara daxil olmadığı nəzərə alındıqda, bunun baş verməsindən sonra qiymətlərin daha da düşəcəyi hamıya aydındır. Belə vəziyyətdə, 2018-ci ilin martında keçiriləcək seçkilərə qədər Rusiyada sosial-iqtisadi durumun ağırlaşacağını proqnozlaşdırmaq üçün iqtisadçı ekspert olmağa ehtiyac yoxdur. Donbas probleminin həllində əldə olunacaq kompromis Rusiya iqtisadiyyatına müəyyən qədər nəfəs aldıra bilər. Məlum olduğu kimi, hazırda Avropa Birliyi və ABŞ-ın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar qüvvədədir və Qərbin maliyyə bazarları Rusiyanın üzünə bağlıdır”.

**Bundan başqa ekspertə görə, Ukraynadakı vəziyyətdə böyük ölçüdə Rusiyadakı siyasi proseslərə təsir edəcək:** “Ukrayna məsələsində ciddi irəliləyiş əldə olunarsa, sanksiyaların bir hissəsi götürülə və Rusiya şirkətləri yenidən Qərbdən maliyyə cəlb etmək imkanı əldə edə bilərlər. Bunun nəticəsində sosial-iqtisadi ağırlaşmanın qarşısını müəyyən dərəcədə almaq mümkündür. Lakin Donbasda sülhün hansı şərtlərlə əldə olunacağı hələlik qaranlıq olaraq alır. Putin bu məsələdə o qədər dərinə gedib ki, indi geri çəkilə bilmir. Bir ildən çoxdur aparılan güclü təbliğat nəticəsində Ukraynada faşistlərin hakimiyyətə gəldiyi və onların ölkənin şərqində rusları və Rusiya tərəfdarlarını məhv etməyə çalışdığı barədə ölkədə ictimai rəy yaradılıb. Ukraynadan hər hansı ciddi güzəşt qoparmadan bu məsələdə geri addım atılması Putin üçün psixoloji çətinlik yaradır, bunu ölkə ictimaiyyətinə izah etmək də çətin olar. Digər variant - Donbasda gərginliyi davam etdirmək, hətta Ukrayna ordusunun mövqelərinə yeni hücumlar və yeni ərazilər ələ keçirmək cəhdləri isə mövcud sanksiyaların qalması, yeni sanksiyaların tətbiqi, Qərblə ”soyuq müharibə"nin davam etməsi mənasına gələr ki, bu da fəlakət ssenarisi deməkdir. Odur ki, Putinin taleyinin müəyyən mənada Ukraynadakı proseslərdən asılı olduğunu söyləmək mümkündür. O da istisna deyil ki, ölkədə çıxılmaz vəziyyət yaranarsa, Putinin yaxın ətrafı, o cümlədən iri holdinq və korporasiyaların rəhbərləri onu yenidən namizəd olmamağın ölkə və şəxsən onun özü üçün faydalı olduğuna inandıra bilərlər. Yəni, Rusiyada əgər bir dəyişiklik olacaqsa, fikrimcə, bunun da Putinin qərarı ilə gerçəkləşməsi ehtimalı daha yüksəkdir, nəinki onun zorla uzaqlaşdırılması variantı".

❑ **KƏNAN**

# AŞPA məruzəçisi Azərbaycanda səfərdədir

## Milica Markoviçin başçılıq etdiyi nümayəndə heyəti Sərsəng su anbarının vəziyyətini öyrənmək üçün gəlib

**Milli Məclisdə Azərbaycanın AŞPA-dakı daimi nümayəndə heyətinin üzvləri Sərsəng su anbarının vəziyyətini öyrənmək üçün ölkədə növbəti faktaraşdırıcı səfərdə olan Avropa Şurası Parlament Assambleyasının Sosial məsələlər, səhiyyə və davamlı inkişaf komitəsinin nümayəndə heyəti ilə görüşüblər.**



MM-dən APA-ya verilən məlumata görə, Milli Məclisin komitə sədri, AŞPA-dakı daimi nümayəndə heyətinin başçısı Səməd Seyidov Azərbaycanın cəbhəyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi mövzusu üzrə qurumun məruzəçisi xanım Milica Markoviçin başçılıq etdiyi nümayəndə heyətinin isti Azərbaycana gəlişini yüksək dəyərləndirib. O, Sərsəng su anbarının Ermənistanın işğalı altında olması nəticəsində 400 min soydaşımızın, qaçqın və köçkünün suvarma suyundan məhrum olduğunu, humanitar fəlakət şəraitində yaşadığını bir daha diqqətə çatdırıb, vəziyyəti yerindəcə görüb dəqiqləşdirmələri üçün faktaraşdırıcı missiyaya Azərbaycan tərəfinin hər cür şərait yaratmağa hazır olduğunu bildirib. S.Seyidov işğalçı Ermənistanın qəsdən AŞPA təmsilçilərinə bölgəyə getmək üçün şərait yaratmadığını vurğulayıb.

**Görüşdə “Azərbaycanın cəbhəyanı rayonlarında mülki əhalinin qəsdən sudan məhrum edilməsi” mövzusu üzrə AŞPA-nın Sosial məsələlər, səhiyyə və davamlı inkişaf komitəsinin məruzəçisi Milica Markoviç yay tətili günlərində onlarla görüşə vaxt ayıran Azərbaycan deputatlarına minnətdarlığını bildirib. O, Azərbaycana ötən ilin dekabrında etdiyi ilk səfərdən sonra Sərsəng ərazisinə baş çəkmək məqsədilə Ermənistana da müraciət etdiyini və indiyədək heç bir cavab ala bilmədiyini deyib. Qonaq problemə açıq münasibət bəsləyən Azərbaycan tərəfinin mövqeyinə və Sərsənglə bağlı təqdim etdiyi materiallara görə razılığını bildirib. Markoviç problemin həlli istiqamətində nəzərdə tutduğu təklifləri diqqətə çatdırıb.**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015

# Təcavüzkar üçün “qara şənbə”

**Ötən həftənin son günləri Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində gərginlik yenidən pik həddə çatıb. İşğalçı ordunun Azərbaycan ərazisində yerləşdirilən bölmələrinin təxribatçı-diversiya hərəkətlərinin qarşısı qətiyyətlə alınıb. Bu zaman düşmənin 5 hərbi qulluqçusu məhv edilib və 8 nəfər isə yaralanıb.**





# Cəbhədə toplar işə düşdü - düşmən ağır itki verdi

## Ermənistanın təxribat hərəkətlərinin qarşısı qətiyyətlə alındı; 5 işğalçı əsgər məhv edildi; **Vaqif Dərgahlı:** “Onlar öz itkilərini gizlədirlər...”

Müdafiə Nazirliyindən “Yeni Müsavat”a verilən məlumata görə, avqustun 22-də axşam saatlarında Ermənistan Silahlı Qüvvələrinin bölmələri atəşkəs haqqında razılaşmanı növbəti dəfə xaincəsinə pozaraq Azərbaycan Silahlı Qüvvələrinin cəbhənin Ağdam və Xocavənd rayonları istiqamətində yerləşən mövqelərini qəflətən iriçaplı atıcı silahlardan, 60 və 82 millimetrlik minaatanlardan atəşə tutublar. Cəbhənin bu istiqamətində yaranmış əməliyyat şəraiti qiymətləndirilərək komandanlıq tərəfindən düşmənin müdafiəsinin ön xəttində və dərinliyində əvvəlcədən müəyyən edilmiş kvadratlara, o cümlədən mövqelərə, postlara, səngərlərə, bölük dayaq məntəqələrinə, kommunikasiya xətlərinə minaatanlar və toplardan yaylım atəşi ilə cavab zərbələri endirmək barədə qərar qəbul edilib. Erməni tərəfi növbəti dəfə itkilərini xalqından gizlətməyə cəhd etməsinə baxmayaraq, əldə olunan məlumata əsasən, düşmənin 5 nəfər hərbi qulluqçusu məhv edilib və 8 nəfəri yaralanıb.

Müdafiə Nazirliyi bildirir ki, qısamüddətli şiddətli atəşdən sonra düşmən tərəfinə meyitlərini çıxarması və ağır yaralılarına yardım göstərməsi məqsədilə komandanlıq atəşin müvəqqəti dayandırılması barədə qərar qəbul edib. Məlumata görə, düşmənin atəşi nəticəsində Azərbaycan ordusunun 3 hərbi qulluqçu yüngül qəlpə yarası alıb. Təxirəsalınmaz ilkin tibbi yardımdan sonra hərbi qulluqçulara daha yüksək ixtisaslı yardım göstərilməsi məqsədilə onlar hərbi tibb müəssisəsinə çatdırılıb. Həkimlərin sözlərinə görə, yüngül qəlpə yarası almış hərbi qulluqçuların vəziyyəti qənaətbəxşdir, onların həyatı üçün heç bir təhlükə yoxdur. Göstərilən tibbi yardımdan sonra hərbi qulluqçular hərbi hissəyə qaytarılıblar.

Azərbaycanın Müdafiə Nazirliyi bəyan edir ki, şəxsi heyətin mənəvi-psixoloji reabilitasiyası üzrə təşkil olunan və həyata keçirilən iş nəticəsində hərbi qulluqçuların döyüş əzmi və qələbə ruhu yüksək səviyyədədir. Nazirlikdən bildirilib ki, qoşunların təmas xəttində vəziyyətin növbəti dəfə gərginləşməsinə və işğalçıların sıralarında baş verəcək insan itkilərinə görə məsuliyyət bütövlükdə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Müdafiə Nazirliyi əvvəlcədən xəbərdar edir ki, Ermənistanın hərbi rəhbərliyindəki əliqanlı yaramazları cilovlamaq məqsədilə düşmənin mövqelərinə endiriləcək zərbələr daha sarsıdıcı, təsirli və amansız olacaq.

***

**Politoloq Elxan Şahinoğlu** növbəti gərginliyin yaranması, düşmənin aqressiyasının artmasının səbəbləri barədə danışarkən bildirdi ki, işğaçıların adətən Ağdam istiqamətində itki verməsinin simvolik əhəmiyyəti var: “Bununla Azərbaycan ordusu göstərir ki, Dağlıq Qarabağ ətrafındakı torpaqları boşaltmaq əzmindədir və düşmən həmin yerlərdə özünü əsla təhlükəsiz hiss etməyəcək. Necə ki, keçən il Ağdam səmasında işğalçıların helikopteri vurulmuşdu və düşmən ciddi itkiyə məruz qalmışdı. Eləcə də işğalçıların bu günlərdə üzləşdikləri itkilər həmin strategiyanın davamıdır. Fikrimcə, Azərbaycan ordusunun işğalçıları daima itkiyə məruz qoymasının başqa mühüm səbəbləri də var. Birincisi, Ermənistanda daxili vəziyyət gərgindir, insanlar iqtisadi və sosial tələblərlə küçələrə axışırlar. Digər tərəfdən əhalisi azalan Ermənistanın Qarabağda itirdiyi bir əsgər belə İrəvanda etiraza səbəb olur. Çünki Ermənistan vətəndaşları övladlarının işğal altındakı torpaqlarda xidmət etməsinə qarşıdırlar. Ona görə də artan itkilər Ermənistanda əsgər anaların hərəkətə keçirir”.

**Ekspert deyir ki, Ermənistan hakimiyyəti bu itkiləri onların valideynlərinə izah edə bilmir:** “Necə desinlər ki, sizin övladlarınızı Ermənistandan kənara göndəririk və onlar orada həlak olurlar? Bunu desələr İrəvanın beynəlxalq aləmin gözündə işğalçı olduğu bir daha sübut olunar. İndi Azərbaycan ordusu işğalçıların itkilərini artırmaqla bir növ Ermənistan ictimaiyyətinə də mesaj göndərir ki, hakimiyyətinizin işğalçılıq siyasəti davam etdikcə övladlarınızın Qarabağdakı qanunsuz varlıqları təhlükəsiz olmayacaq”. **E.Şahinoğğlu baş verənlərin Azərbaycan və Ermənistan prezidentlərinin ABŞ görüşü ərəfəsinə təsadüf etməsinə də toxundu:** “Sentyabr ayında BMT-nin sessiyası işə başlayacaq. Adəti üzrə həmin sessiyaya dövlət başçıları qatılacaqlar. Bu çərçivədə həmsədrlər Azərbaycan və Ermənistan prezidentlərini də görüşdürmək istəyirlər. Doğrusu, danışıqlarda irəliləyiş olmadığına görə prezidentlərin görüşündən real nəticə gözləmirəm. Belə vəziyyətdə görüşün baş tutub-tutmayacağı da sual altındadır. Azərbaycanın Ermənistandan və həmsədrlərdən əsas tələbi bəllidir: Dağlıq Qarabağ ətrafındakı torpaqlar qeyd-şərtsiz boşaldılmalıdır, bu məsələ həll planının digər müddəaları ilə əlaqələndirilməməlidir. Çünki bu torpaqların ermənilərə heç bir aidiyyəti yoxdur, bunu özləri də anlayırlar və bu məsələ danışıqlarda şantaj predmeti olmaqdan çıxmalıdır. Bunun üçün isə Azərbaycan ordusu daima Dağlıq Qarabağın ətrafını gərginlik içində saxlamlıdır ki, düşmən niyyətimizin ciddi olduğunu anlasın. Sentyabrda prezidentlərin Nyu-Yorkda görüşü baş tutacaqsa, İlham Əliyev yenidən bu mesajı erməni həmkarının diqqətinə çatdıracaq. Ona görə də BMT-nin sentyabrdakı sammitinə qədər cəbhə bölgəsində hələ çox toqquşmaların şahidi olacağıq”.

Bəzi müşahidəçilər hesab edir ki, düşmənin aqressivliyinin artmasını şərtləndirən bir neçə amil var. Onlardan biri Ermənistan daxilindəki gərgin sosial-iqtisadi və siyasi durumla bağlıdır. Erməni müxalifəti sentyabrdan davamlı etirazların bütün ölkəni əhatə edəcəyini bəyan edib. Eyni zamanda erməni dramı da devalvasiyaya uğramaqdadır, üstəlik, müflisləşmiş erməni əhalini növbəti ağır günlər gözləyir. Erməni hakimiyyəti gərginliyi artırmaqla ölkədaxili vəziyyətdən diqqəti yayındırmaq istəyir. Eyni zamanda Rusiyanın Ermənistandakı hərbi bazasının şəxsi heyətinin bu arada hərbi təlimlərə başlaması də İrəvanın cəsarətlənməsini şərtləndirir. Bu arada belə bir məlumat yayılıb ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) yeni ortaq aviasiya qüvvələri təşkilatı yaradacaq. BAKU.WS-in RİA Novosti agentliyinə istinadən verdiyi məlumata görə, bunu KTMT-nin baş katibinin müavini Valeri Semerikov deyib. “Biz təşkilatın kollektiv aviasiya qüvvələrinin yaradılması barədə təklif hazırlamışıq”. Baş katibin müavini həmçinin deyib ki, kollektiv aviasiya qüvvələrinin yaradılması bu qüvvələrin təşkilata üzv olan ölkələrdən hər birinə kömək üçün göndərməyə imkan verəcək", - deyə Semerikov bildirib.

Qeyd edək ki, KTMT-yə Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan üzvdür. Lakin bu da faktdır ki, erməni hakimiyyəti Azərbaycanla savaşda xilas yolu kimi Rusiyanın himayəsinə sığınmağı özü üçün əsas nicat yolu kimi seçib, KTMT sadəcə, bəhanə rolunu oynayır. E.Şahinoğlu da şübhə etmir ki, adı çəkilən ölkələri Bunları Rusiya arxasınca sürüyür: “Ermənistandan başqa kimsə bu kimi hərbi ittifaqlarda maraqlı deyil”.

***

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı** “Yeni Müsavat”a bildirdi ki, cəbhədə davamlı olaraq gərginlik müşahidə olunur: “Sadəcə, düşmən bu dəfə daha çox sayda minaatanlardan istifadə edib. Əvvəlki dövrlərlə müqayisədə artıq mərmilərin sayı çoxalıb. Üstəlik, atəşkəs rejiminin pozulması halları da artıb. Hər gün 100-dən artıq atəşkəsin pozulması halı qeydə alınır. Düşmən qorxur və ona görə daim gərginliyin olmasına çalışır. Heç şübhəsiz ki, bizimkilər cavab zərbəsi vururlar. Azərbaycan tərəf düşmənə zərbələr endirərkən minaatanlardan və toplardan istifadə edib. Lakin düşmən itkilərini gizlədir. Son hadisə zamanı Azərbaycan tərəfi hətta qısa müddətdə atəşi dayandırıb ki, düşmən meyitlərini götürsün. Həmçinin komandanlıq tərəfindən humanist addım atılıb ki, heç olmasa yaralılar döyüş zonasından çıxarılsın”.

MN rəsmisi Azərbaycan ordusunun Ağcabədinin Qiyaməddinli kəndi yaxınlığında itki verməsi barədə yayılan xəbərləri təkzib etdi. V.Dərgahlı təkrarən həmin bölgədəki komandanlıqla əlaqə saxladıqdan sonra bu barədə xəbəri qəti təkzib etdi: “Azərbaycan ordusunun 3 əsgəri yüngül yaralanıb, bu barədə rəsmi məlumatımızda da xəbər verilib”.

***

Ermənistanın azğınlaşdığı bir ərəfədə Türkiyə və Azərbaycanın növbəti birgə hərbi təlimlərə başlaması ordumuzun döyüş qüdrətinin artırılması üçün önəmli faktorlardan sayılır. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı “Yeni Müsavat”a dedi ki, “TurAz Qartalı - 2015" təlimlərində iştirak edəcək Türkiyə HHQ-nin mühəndis-texniki heyəti Azərbaycandadır. Müdafiə Nazirliyinə istinadla verdiyi məlumata görə, Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə iştirakı ilə ”TurAz Qartalı - 2015" taktiki təlimlərində iştirak etmək məqsədilə türkiyəli mühəndis-texniklərdən ibarət geniş tərkibdə heyət ölkəmizə gəlib.

Hazırda birgə təlimlərin aktiv fazasının keçirilməsinə hazırlıq məqsədilə heyətlərin toplanması, təlimin planlaşdırılması və digər təşkilati məsələlərlə əlaqədar fəaliyyətlər həyata keçirilir. 18 sentyabradək davam edəcək birgə təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitəsi, o cümlədən MiQ-29, F-16 qırıcı, Su-25 hücum, F-4E bombardmançı, C-130 Herkules hərbi-nəqliyyat təyyarələri, Mi-35 döyüş, Mi-17 və Sikorski UH-60 döyüş-nəqliyyat, Cougar AS532 axtarış-xilasetmə helikopterləri iştirak edəcəklər.

**V.Dərgahlı onu da qeyd etdi ki, artıq uçuş heyəti bir-biri ilə tanış olur, qalxma-enmə zolaqları ilə tanışlıq prosesi gedir. Maraqlıdır, təlimlər cəbhə bölgəsini də əhatə edəcəkmi? Nazirlik rəsmisi dedi ki, döyüş təyyarələrinin və döyüş helikopterlərinin uçuşları təlimin planına və proqramına uyğun olaraq həyata keçiriləcək.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015



# Ömrümüzü yeyən polemika

Xalid KAZIMLI

**Demokratiya və insan haqları sahəsində ciddi problemləri olan ölkələrin, demək olar ki, hamısında belədir: mövcud durumdan çıxış yollarını müzakirə etmək əvəzinə həmin duruma necə, kimin günahı üzündə düşmələrini müzakirə edirlər.**

İllər keçir, on illər ötür, müzakirə mövzusu dəyişmir. Hamı mütləq keçmişdən danışır, "o zaman elə olsaydı, belə olmazdı", "25 il əvvəl filan cür etsəydilər, bu duruma düşməzdik" kimi cümlələr qurulur, bir kitablıq polemika gedir, axırda da heç bir yekun nəticəyə varılmadan söhbət müvəqqəti olaraq bağlanır.

Biz 22 ildir ki, Elçibəy hakimiyyətinin süqutunun səbəblərini müzakirə edirik.

Bu hakimiyyət cəmi bir il ömür sürüb, amma 22 ildir müzakirə olunur.

Ona görə belədir ki, biz 22 il öncə düşdüyümüz yarğandan çıxa bilmirik.

Əgər 1995-də və ya 1998-ci ildə yenidən azad, ədalətli, qanuni seçki keçirib hakimiyyətin dinc yolla dəyişməsi mexanizmini bərqərar edə bilsəydik, indiyə ən azı 3 başqa soyadlı prezident, başqa tərkibli iqtidar komandası görmüş olardıq və bu söhbətlər çoxdan bitmiş olardı.

Təəssüf ki, görüb-görəcəyimiz bircə Elçibəy iqtidarı olub, o da müharibənin ən qızğın vaxtına, dövlət strukturlarının formalaşmadığı dövrə düşüb.

Son 22 ildə hakimiyyətə yeni qüvvələri gətirməyə nail olmamağımız da onu göstərir ki, biz demokratiyaya o qədər də hazır deyilmişik, cəmi bir atımlıq barıtımız varmış, onu da atıb qurtarmışıq, ikinci atəşə sursatımız olmayıb.

Gələcəyə yönəlik enerjimiz qalmadığından, üzümüzü keçmişə tutmuşuq, Elçibəyin və onun komandasının müzakirəsini davam etdiririk.

Bir neçə gün öncə Elçibəyin vəfatının 15-ci ildönümüydü, ona görə də mövzu yenidən aktuallaşıb.

Bu dəfə Elçibəyin məzarının üstünə gedib onun xatirəsini yad edənləri də qınayırlar. Özü də bunu o adamlar edirlər ki, onlar nə sağlığında, nə də vəfatından sonra Elçibəyi siyasi lider, tarixi şəxsiyyət kimi qəbul etməyiblər, həmişə ona qarşı olublar. Ancaq budur, onlar birdən-birə Elçibəysevər olublar və onun silahdaşlarını Elçibəyə və onun irsinə xəyanətdə ittiham edirlər.

Bir tanınmış hüquqşünas isə adını çəkməsə də üstüörtülü şəkildə İsa Qəmbəri 1992-ci ildə özü istəmədiyi halda prezident olmağa vadar etdiyini bildirir, iki cümlədən sonra ona qarşı daha bir ittiham səsləndirir: 1998-ci ildə Elçibəyin vahid namizəd kimi prezident seçkilərində iştirakını əngəlləyib.

Məntiq varmı burada? Bir adam həm Elçibəyi zorla prezident etməkdə günahlandırılır, həm də sonradan onun vahid namizədliyinin qarşısını almaqda.

Bir başqa müəllif məsələyə başqa prizmadan yanaşır, Elçibəyin 1998-ci ildə İsa Qəmbərin seçkilərdə vahid namizəd olmasının qarşısını almaq üçün təcili şəkildə Bakıya döndüyünü yazır.

Başqa bir jurnalist Elçibəyi ona görə qınayır ki, nəyə görə o, hakimiyyətə Heydər Əliyevi dəvət edib.

Məsələnin mahiyyəti bundadır. Əksəriyyət qəti olaraq əmindir ki, 22 il öncə milli-azadlıq hərəkatının dalğasında formalaşmış AXC-Müsavat hakimiyyəti özünü qoruya bilsəydi, ard-arda bir neçə məşum səhv buraxmasaydı, indi ölkə tamam başqa durumda olardı. Ancaq bu fikirdə olanların bir xeylisi də məhz həmin hakimiyyətə qarşıydı.

Bu mövzuda saatlarla, günlərlə, hətta aylarla müzakirə aparmaq, ən xırda detalları belə nəzərdən keçirmək, nəzəri olaraq bütün inkişaf istiqamətlərini ölçüb-biçmək olar, amma nəticə dəyişməyəcək.

Gerçəklik bundan ibarətdir ki, biz mövcud situasiyadan çıxmaq üçün nə doğru-dürüst plana, proqrama, nə də yetərli potensiala, enerjiyə malik deyilik. Heç onları əldə etmək üçün uyğun təşəbbüs və həvəs də yoxdur.

Oturub irəliyə baxmaq, perspektiv planlar üzərində işləmək, ölkənin necə demokratikləşdirilməsi yollarını müzakirə etmək əvəzinə hələ də 1992-93-cü illərdə baş verən hadisələri dartışmaqla heç kim heç nə əldə edə bilməyəcək.

YAP hakimiyyəti də bu mövzunu unutmur, cümlələrini "gəlmişdiniz, gördük"lə başlayırlar.

**Nəhayət, bitsin bu mövzu, bu polemika. Ömrümüzü yedi...**

# Super marketlər "susub", mini-marketlər bahalaşdırır

## Bakıdakı iri mağazalarda qiymətlər stabildir, məhəllə dükanları isə…

**Paytaxtda yerləşən mağazalarda qida məhsullarının qiymətində artımı davam edir. Artım daha çox mini-marketlərdə, məhəlləarası mağaza və dükanlarda müşahidə olunur. Bunun isə səbəbi var... Ötən günlərdə İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti, istehlak bazarında süni qiymət artımının qarşısının alınması məqsədi ilə nəzarət tədbirlərinin həyata keçirildiyini açıqladı.**





Lakin aparılan bütün tədbirlərə rəğmən, paytaxtda qiymət artımı davam edir. Rəsmi qurumlar bunu "süni qiymət artımı" adlandırsalar da, satıcılar və alıcılar təbii olaraq başqa fikirdədirlər.

Musavat.com-un əməkdaşının Bakıda yerləşən mağazalarda apardığı araşdırmaya görə, qiymət artımları hələ ki, daha çox yağların, un məhsullarının və çayların dəyərində özünü göstərib. Belə ki, adlarını qeyd etdiyimiz məhsulların qiymətlərində 20-25 faiz artım müşahidə olunmaqdadır.

Onu da qeyd edək ki, qida məhsullarının qiymət artımı iri marketlərdə hələ ki, müşahidə olunmur. Məsələn "Rahat market", "Bazar store"da kütləvi qiymət artımlarına rast gəlmədik. Mağazada çalışan əməkdaşların sözlərinə görə, bunun səbəbi gətirilən məhsulların hələ satılmamasıdır.

Mini-marketlər isə xüsusi qara qələmlər vasitəsi ilə bəzi qida məhsullarının əvvəlki qiymətlərini qaralayıb, yeni rəqəmlər yazıblar. Metronun "Nərimanov" stansiyası yaxınlığında yerləşən mini-marketlərdən birinin satıcısı Rəsul Kazımovun sözlərinə görə, onlar qiymət artımlarını hissə-hissə aparırlar: "Hansı malı gətiririksə, onun da qiymətini artırırıq. Telekanallarda eşitdik ki, qiymətlər 30-35 faiz artırılıb. Yəni bu, bizim ideyamız deyil. Ölkənin bütün yerlərində artım varsa, biz də artırırıq. Özü də biz birdən-birə bütün qiymətləri qaldırmırıq. Hansı məhsulu baha alırıqsa, onun qiymətində dəyişiklik edirik. Ən çox qalxan çayların və yağ məhsullarının qiymətidir. Hansı ki, onların qiymətlərində 20-25 faiz dəyişiklik etmişik".

Söhbət etdiyimiz bütün marketlərin satıcılarından demək olar ki, yuxarıdakı cavabı aldıq.

Xatırladaq ki, qida sektorunda fəaliyyət göstərən iri şirkətlər ərzaq məhsullarının qiymətinin artmasını Çin valyutasının devalvasiyası ilə əlaqələndirmişdilər.

Mövzunu musavat.com-a şərh edən iqtisadçı ekspert Natiq Cəfərli deyib ki, Çində yuanın devalvasiyaya uğramasının Azərbaycanda məhsulların qiymətinin qalxmasına heç bir təsiri yoxdur:

"Çin şirkətləri bizdə bazara birbaşa çıxmırlar, ancaq vasitəçi şirkətlər və fiziki şəxslər vasitəsi ilə çıxırlar. Ona görə də, qiymətlərə ciddi təsiri olmayacaq. Baxmayaraq ki, Çin mallarında ucuzlaşma Çinin özündə olacaq. Azərbaycanda qiymətlərin artmasının səbəbi, gömrükdəki rüsumların çox olması ilə bağlıdır".

**Marketlərdə yağ və un məhsullarının qiymətlərindəki artım, kafelərdə tərtib edilən menyulara da təsir edib. Belə ki, əldə etdiyimiz məlumata görə, kafe sahibləri yeməkləri artıq 20-30 qəpik civarında baha satmağa başlayıblar.**

❑ Əli RAİS
Musavat.com

# Rusiyadan gələnlər özləri ilə fəlakət gətirir - ŞƏRH

## **Vüqar Bayramov:** "Rayonlara göndərilən pullar kəskin azalıb"

**Rusiyada yaşanan iqtisadi böhran nəticəsində orada çalışan həmyerlilərimizin Bakıya qayıdışı sürətlənib. Ekspertlər hesab edirlər ki, Rusiyanın miqrantları öz ərazisindən çıxarması, Azərbaycana hər il bir milyard dollar itki hesabına başa gələ bilər.**

Məsələ ilə bağlı müsavat.com-a danışan miqrasiya eksperti Azər Allahverənov bildirib ki, hazırda Rusiyada təxminən 554 min azərbaycanlı yaşayır:

"Əmək fəaliyyəti ilə məşğul olanların sayı təqribən 450 min civarındadır. Onlardan müəyyən bir qismi əmək fəaliyyəti ilə qanunverici əsaslarla, digər qismi isə heç bir yerdə qeydiyyata alınmadan fəaliyyət göstərir. Yəni, bu insanların Rusiyada yaşamasının əsas səbəbi, əmək fəaliyyəti ilə məşğul olmalarıdır. Onların Azərbaycana qayıdışı baş verərsə, yenidən ölkəmizdə işsiz qalma təhlükəsi ilə üzləşə bilərlər. Bu isə əmək bazarında gərginlik yaradacaq".

Bəs bu şəxslərin Azərbaycana qayıdışı ölkəmizə iqtisadi baxımdan hansı problemlər yarada bilər?

**İqtisadçı-ekspert Vüqar Bayramov** mövzu ilə bağlı digər nüanslara toxunub. Ekspert bildirib ki, əsas məsələ Rusiyada yaşayan həmyerlilərimizin təhsilsiz olmasıdır ki, bu da əlavə problemlərə yol aça bilər:



"Rusiyada yaşayan həmyerlilərimiz sayəsində Azərbaycana ötürülən pulların, ölkəmizin ümumi daxili məhsulunda (ÜMD) payı azdır. Ancaq nəzərə almaq lazımdır ki, bu məbləğin böyük bir hissəsi rayonda yaşayan ailələrə göndərilir. Bu isə rayonlardakı sosial iqtisadi vəziyyətə birbaşa təsir göstərir. Bu baxımdan Rusiyadan ölkəmizə göndərilən vəsaitlərin həcminin azalması birmənalı şəkildə arzuolunan deyil. Bir sıra MDB ölkələrindən fərqli olaraq, Azərbaycan miqrantların göndərdikləri vəsaitdən bir o qədər də asılı deyil. Belə ki, Azərbaycanda bu rəqəm ÜDM-un 2.5 faizi olduğu halda, Gürcüstanda, Özbəkistanda 12, Ermənistanda 21, Moldovada 25, Qırğızıstanda 32, Tacikistanda isə 49 faizdir. Lakin qeyd etdiyimiz kimi miqrantların göndərdikləri vəsaitlərin əsas hissəsi rayonların payına düşür. Bu isə ölkə iqtisadiyyatına bir başa təsir edən faktordur".

**Ekspert müqayisə edərək bildirib ki, 2014-cü illə müqayisədə Rusiyadan ölkəmizə göndərilən vəsaitlərin həcmində kəskin azalma var:** "2014-cü ildə Rusiyadan Azərbaycana 20 milyard dollar civarında vəsait göndərilib. Bu isə o deməkdir ki, xaricdən miqrantlar vasitəsi ilə ölkəyə daxil olan 100 dollardan 69-u Rusiyanın payına düşüb. Qiymətləndirməmiz göstərir ki, ötən illərlə müqayisədə ölkəyə göndərilən remittance *(miqrantların göndərdiyi vəsait)* həcmi 39.5 faiz aşağı düşüb. Eyni zamanda 2015-ci ildə Rusiyadan Azərbaycana göndərilən vəsaitlərin 700 milyon dollar azalacağı proqnozlaşdırılır. Bunun isə ölkə iqtisadiyyatına iki əsas təsiri olacaq. Bunlardan biri odur ki, rayonlarda yaşayan vətəndaşların iqtisadi vəziyyəti çətinləşəcək. İkincisi isə Rusiyada çalışan həmyerlilərimizin təhsilsiz olduqlarını nəzərə alsaq, onları ölkəmizdə işlə təmin etmək də çətin olacaq. Aparılan sorğulara görə demək olar ki, bu şəxslərin əksəriyyəti orta təhsillidir və onların ixtisasları yoxdur. Bu, o anlama gəlmir ki, qayıdanların heç biri işlə təmin olunmayacaq. Lakin qeyd etdiyimiz kimi bu, heç də asan olmayacaq. Təbii ki, bütün bunlar ölkə iqtisadiyyatına da təsirsiz ötüşməyəcək".

❑ Əli RAİS,
Musavat.com


Mehriban Vəzir

# Emin Millinin Elçibəy haqda fikirlərinə reaksiya gəldi

## Meydan TV rəhbərinin ittihamları ciddi qalmaqala səbəb olub; tarixçi-yazar onu qınadı

**Meydan TV-nin rəhbəri Emin Millinin mərhum prezident Əbülfəz Elçibəy haqda xoşagəlməz ittihamlar səsləndirməsi sosial şəbəkələrdə və mətbuatda ciddi qalmaqala səbəb olub. Sayt rəhbərinin ünvanına tənqidi fikirlər səsləndirilir.**

Hər şey Əbülfəz Elçibəyin vəfatı günü "Meydan TV" saytında iki il əvvəl başqa bir saytda yayılmış yazının təkrar yayılması ilə başlayıb. Yalçın Nəsirov adlı müəllifin "Kələki çıxmazı" adlı yazısının saytda yayılması Elçibəysevərlərin etirazları ilə qarşılanıb. Emin Milli isə özünü müdafiə etmək üçün avqustun 22-23-də dalbadal bir neçə status yazıb, Əbülfəz Elçibəyə qarşı fikirlər səsləndirib.

Məsələn, o, Əbülfəz Elçibəyi "cinayətkar" adlandırıb. Emin Millinin "cinayət" hesab etdiyi addım isə 1993-cü ildə Heydər Əliyevin Bakıya dəvət edilməsidir. Emin Milli Əbülfəz Elçibəy haqqında "Tarix onu heç vaxt bağışlamayacaq" yazıb.

**Meydan TV-nin rəhbəri son statusunda isə Elçibəy yazmağa da lüzum görməyib:** "Mövcud müxalifətin Əbülfəz Əliyev haqqında xalqın bildiyi həqiqəti xalqa deməməsi, əksinə, həqiqəti ört-basdır etmələri, xalqı bu müxalifətdən həmişə şübhələndirib. Həbsdə, rayonlarda olanda, müxtəlif yerlərdə və zamanlarda özüm bunun şahidi olmuşam".

Bununla bağlı **Bütöv Azərbaycan Birliyinin idarə heyətinin üzvü, tarixçi-yazar Mehriban Vəzir** "Yeni Müsavat"a açıqlamasında Emin Millini fikirlərinə görə qınadı: "Vətəndaşlarımız hazırda yaşadıqlarını duruma görə acı duyğular yaşayırlar. Duyğularını hər kəs öz səviyyələrinə, bilgilərinə uyğun ifadə edir. Azərbaycanda vətəndaşların bir qismi bugünkü problemlərdə Elçibəyi qınayırlar. Öz günah, xətalarını görmək istəmirlər. Özlərini qınamağa gücləri çatmır. Ən asan şey başqasını ittiham etməkdir. Hər kəs öz səviyyəsinə görə ifadə edir. Elçibəyin böyük dövlət xadimi olduğunu görmək üçün, bir az o səviyyəyə yaxın olmaq lazımdır. Bunun üçün böyümək, prosesləri bilmək lazımdır. Ən asanı kimisə söyməkdir. İndiki hakimiyyətin ünvanına deyə bilmədiklərini başqa adamı söyməklə əvəz edirlər. Buna təəssüf edirəm. Bu da bilməməyin nəticəsidir".

### Mehriban Vəzir: "Elçibəyə hörmətsizlik edən..."

**M.Vəzir Emin Millinin mühacirətdə olmasına da toxundu:** "Emin Millinin depressiyaya düşməsinə səbəb odur ki, o, öz cəmiyyətində yaşaya bilmir. Onun kimi saysız-hesabsız gənclərimiz öz cəmiyyətlərində yaşaya, öz gücləri öz ölkələrinə həsr edə bilmirlər. Bunun özü də bir mənəvi böhran yaradır. Böhran vəziyyətdə olan insan təbii ki, normal düşünə bilməyəcək. Bizim ittiham etməyə, kimisə döyməyə gücümüz çatır. Bu baxımdan belə düşüncəyə sahib insanları qınamaq istəmirəm. Belə situasiyanın yaranmasında hər bir vətəndaşımızın rolu var. Heç kəs kənara qaça bilməz. Elçibəy hakimiyyəti dövründə əldə olunan nailiyyətləri, qazandığımız demokratik ənənələri Emin Milli kimilərinin ucbatından itirdik. Biz öz əlimizdə olanı saxlaya bilmiriksə, niyə də Elçibəyi qınamalıyıq? Üstünə nailiyyət gətirə bilərdik. Amma olmadı. Hər kəs özünü düz düşünür. Hər kəs özünü qınamaq əvəzinə, hər kəs bir adam tapıb, onu qınayır. Hesab edirəm ki, bütün bunlar Elçibəyin nə şəxsiyyətinə, nə də tarixi xidmətlərinə zərbə vurmayacaq. Məncə, Elçibəyə hörmətsizlik edən, ilk növbədə, özünə hörmətsizlik edir".

**Tarixçi-yazar E.Millinin müxalifət barədə dediklərinə də münasibət bildirdi:** "Tam bir cəfəngiyat fikirlərdir. Ciddi əsasları yoxdur. 1987-ci ildən başlayan proseslər, qurulan hökumət elmi cəhətdən düzgün araşdırılmayıb. İnsanların bu prosesdən məlumatları yoxdur. Araşdırma aparılmasına da imkan verilmir. Çünki üzə çıxan həqiqətlər xalqın ruhunu oyandıra, xalqa tarixi kimliyi barədə məlumat verə bilər. Bu gün idarə etmək üçün sürü halında olan ağılsız, savadsız bir toplum lazımdır. Ona görə də, belə deyirlər. Çox təəssüf edirəm ki, Emin Milli kimi, bir səviyyəli gəncin məlumatı bu qədərdir. Bilik səviyyəsi də bu qədərdir. Bu belə danışırsa, digərlərindən nəsə gözləmək lazım deyil".

❑ **Cavanşir ABBASLI**

# Xədicə İsmayıl onun ittiham aktını işıqlandıran "Yeni Müsavat"a mesaj göndərdi

## Məhbus jurnalistin uğursuz bənzətməsi və məqalələrin arxasındakı gerçəklər


Xədicə İsmayıl

**"Yeni Müsavat" qəzetinin 21-22 avqust tarixlərində "Xədicə İsmayılın işində şok ifadələr, ilginc detallar" başlıqlı, iki hissəli məqalə dərc edilib. Azadlıq Radiosunun əməkdaşı, hazırda həbsdə olan Xədicə İsmayılın cinayət işi ilə bağlı ittiham aktını əldə edən qəzetimizin əməkdaşı orda ictimaiyyət üçün maraq kəsb edəcək, jurnalistin həbsinə səbəb olan detalları yayımlayıb. Xanım jurnalistin həyatına dair özəl və intim məqamları tamamən ixtisar edib, sadəcə mahiyyətə uyğun detalları dərc etdiyimiz halda haqq etmədiyimiz bir reaksiya ilə qarşılaşdıq.**

Belə ki, məqalələrin dərci onu maraqla oxuyanlarla yanaşı *(məqalə oxunma reytinqinə görə ilk sıralarda dayanır)*, istər işdə adı keçən şəxslər, istərsə də ictimai sektorun bəzi nümayəndələri tərəfindən narazılıqla da müşayiət olundu. Bəziləri hesab etdilər ki, bu materialların yayımlanması özəl həyatın toxunulmazlığı prinsipini pozur. X.İsmayılın həbsinin əsl səbəbinin bu hekayələr yox, araşdırma məqalələri olduğunu deyənlər isə ittiham aktındakı detalları yayımlamağın doğru olmadığını iddia etdi. Hətta və hətta qəzetimizi bu materialları çap etdiyinə görə "hakimiyyətin Xədicə İsmayılla bağlı gizli planı"nda iştirak etməkdə, ictimai rəyi onun şəxsi həyatına yönəltməkdə, onun barəsində cəmiyyətdə yanlış fikir aşılamaqda suçlayanlar da oldu.

"Yeni Müsavat" isə xatırladır ki, ilk gündən bu sənədləri yayımlamaqda yeganə məqsədi olub: X.İsmayılın cinayət işində cəmiyyətdən gizli qalan məqamları üzə çıxarmaq, jurnalistə qarşı "mətbəx"də hazırlanan əməliyyatın detallarını ictimaiyyətə təqdim etmək. Çox dar bir çevrənin - 10-15 nəfərdən söhbət gedir - bu detalları bilməsi isə bütün oxucuların ondan xəbərdar olması anlamına gəlmir.

Bu gün isə **jurnalist Natiq Cavadlı** sosial şəbəkədə yazdığı statusda X.İsmayılla telefonla danışdığını, sonuncunun ona bu məqalələrlə bağlı mövqeyini bildirdiyini açıqlayıb. Statusa diqqət: "Həbsə düşəndən sonra ilk dəfə Xədicə İsmayılla danışdım. Sevincimin həddi yoxdur. Hamıya salamlar söylədi. Lukaşenkonun siyasi məhbusları azad etməsini dedim, uğunub güldü. Neftin qiymətindən xəbəri var. Səsi gümrah idi.

Xədicə xanım xahiş etdi ki, cəmiyyətə çatdıraq. "Yeni Müsavat" qəzetinin dərc etdiyi ifadələr deyil, bu, prokurorluğun yazdığı ittiham aktıdır və orada onlara sərf edən yalanlar yazılıb, hətta ifadələr saxtalaşdırılıb, guya ifadələrdə belə söylənilir deyə ona saxta ittiham düzəldilib. Adamların ifadələrdə demədiyi sözlərə istinad olunub, yalan şərhlər və çıxarışlar edilib. Nəinki başqalarının, hətta onun öz ifadəsi orada yanlış və prokurorluğa lazım olan kimi qələmə verilir. Bu, saxta və uydurma bir sənəddir.

Xədicə xanım dedi ki, hətta prokuror ona iş istəyərkən adamların bir neçə gün öncə məhkəmədəki ifadələrini saxtalaşdırdı və yalandan çıxarışlar etdi. Ekspertlər də yalan danışdılar.

Amma hətta qorxu və şantajla da aldıqları ifadələr də doğrulmadı, "zərərçəkən" belə məhkəmədə ifadəsindən imtina etdi, onu hansı basqı altında verdiyini söylədi. Başqa cür ola da bilməzdi, çünki ortada heç bir cinayət yoxdur.

"Heç kim mahiyyəti çaşdırmağa çalışmasın, məni ifadələrlə tutmayıblar, İlham Əliyev məndən yazılarıma görə intiqam alır.

"Yeni Müsavat"a gəlincə, mən artıq ona "Səs" qəzeti kimi yanaşıram".

"Yeni Müsavat" olaraq bir daha bəyan edirik ki, ilk gündən X.İsmayıl işindəki bütün detalları üzə çıxarmaqda maraqlı olmuşuq. Silsilə məhkəmə reportajları, vəkillər, işdəki "açar fiqurlar"la səs-küy doğuran eksklüziv müsahibələr, hətta onların ən önəmsiz kimi görünən, amma işin gedişinə ciddi təsir edən statuslarının işıqlandırılması... bunun təsdiqidir. Hətta son məhkəmə iclaslarından birində X.İsmayıl həbsinə səbəb olan Tural Mustafayevin "Yeni Müsavat"a verdiyi müsahibənin - hansında ki, bu gənc xanım jurnalistin lehinə danışmış, onun intiharında hər hansı rolu olmadığını bəyan etmişdi - öz xeyrinə olan sübut kimi cinayət işi materiallarına əlavə edilməsini xahiş etmişdi. Bəli, indi "Səs" deyib, istehza etdiyi qəzetin onun xeyrinə olan müsahibəsini...

İttiham aktı bütünlüklə əlimizdə olsa da, cəmiyyətin kiçik bir kəsimində yaranan narazılığı nəzərə alıb, onun çapını müvəqqəti dayandırdıq. Hazırda onun çapının davamı ilə bağlı media ekspertləri ilə də məsləhətləşmələr gedir. Təbii ki, işin içində adı keçən şəxslər, bu işlə bağlı bu və ya digər formada ifadə verənlər onun çapının davamında maraqlı deyil və bu, anlaşılandır.

Amma X.İsmayılın dediyi kimi, ittiham aktının heç bir yerində onun yazdığı məqalələrə görə həbs olunduğu qeyd olunmayıb. İttihamlar ona intihar həddinə çatdırma, eləcə də radionun fəaliyyətinə dair bəzi pozuntular üzrə verilib.

"Yeni Müsavat" isə ittiham aktını vəkillərdən biri vasitəsilə əldə edib. Həmin aktla xanım jurnalist özü də tanış olub, material rəsmidir. Qəzetin təqdimatında həmin məqalələr dərc edildikdə isə bu qeyd öz əksini tapır: bu, rəsmi istintaq materiallarıdır. X.İsmayılın "bu, saxta və uydurma bir sənəddir" açıqlaması isə məhkəmə reportajlarımızda da öz əksini tapıb.

**Bizim funksiyamız isə sözügedən işi bütün rakurslar üzrə işıqlandırmaq, qaranlıq məqamları üzə çıxarmaq olub.**

❑ **Sevinc TELMANQIZI**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015



# ABŞ qoşunlarını dəvət edəkmi?

**Azər RƏŞİDOĞLU**

**Milli Məclisə seçkilərə çox az vaxt qaldı. Neftin qiymətinin aşağı düşməsi, manatın "can verməsi", qiymət artımı, beynəlxalq təzyiqlər iqtidara ciddi problemlər yaradır.**

Ümumiyyətlə, son aylar ərzində rəsmi Bakının mövqeləri əsaslı dərəcədə sarsıdılıb. Bu prosesdə Moskvanın öndə getdiyi fikri ictimai rəydə üstünlük təşkil edir. Azərbaycanda cərəyan edən proseslərin Rusiyadan asılı olduğu qənaətinə gələnlərin sayı durmadan artır. Lakin Cənubi Qafqaz və o cümlədən Azərbaycan Qərb üçün son dərəcə önəmli bölgədir. Bu baxımdan, ölkəmizin Rusiyanın təsir dairəsinə belə asanlıqla verilə biləcəyini ehtimal etmək də yanlış olardı.

Onu da vurğulayaq ki, Rusiya 2008-ci ilin avqustunda Gürcüstana qoşun yeridərkən, Cənubi Qafqaz uğrunda Vaşinqton və Moskvanın qarşıdurması açıq müstəviyə keçdi. Digər tərəfdən, Ermənistanda, Gürcüstanın işğal olunmuş ərazilərində - Abxaziya və Cənubi Osetiyada, habelə Dağlıq Qarabağda rus qoşunları mövcuddur.

Bu amil də ABŞ-ı Azərbaycanda hərbi bazalara sahib olmasını zəruri edən faktlar sırasındadır.

Bu arada ölkədə dini radikallığın artması ilə bağlı fikirlər də səslənir.

Əlbəttə, bu addım daha çox geosiyasi amillərlə bağlı olsa da, Azərbaycanda dünyəvi dövlət quruluşunun təhlükədə olması barədə ictimai rəyin formalaşdırılması eyni zamanda Qərb insanının fikirlərini manipulyasiya etməyə yönəlib.

Bu baxımdan Azərbaycanda islam təməlçiliyinin baş alıb getməsi barədə ictimai rəyin formalaşdırılması prosesi artıq uzun müddətdir getməkdədir. Bunun fonunda bəzi marginal dini icmaların özünü cəmiyyətə şəriət dövləti tərəfdarları kimi təqdim etmək cəhdləri Azərbaycanda islam təməlçiliyinin tərəfdarlarının artması fikrini formalaşdırmağa xidmət edir.

Azərbaycanda guya, şəriət dövlətinin qurulması barədə deyilənlər də məhz ABŞ qoşunlarının Azərbaycana gəlişinə şərait yaradılması üçün ortaya atılan siyasi texnologiyalardan xəbər verirdi.

Onu da unutmaq olmaz ki, ABŞ Azərbaycana çoxmilyonlu yatırımlar qoyub, ölkə Vaşinqtonun enerji layihələrində iştirak edir, geosiyasi amillərlə yanaşı bu iqtisadi faktor da təhlükəsizliyin zəmanətçisi kimi ABŞ qoşunlarının Azərbaycanda mövcudluğunu zəruri edən amillər sırasındadır.

Daha bir mühüm amil, yuxarıda qeyd etdiyimiz kimi, 2008-ci ilin avqustunda baş verən hadisələr idi. Rusların Gürcüstanı az qala işğal etməsi göstərdi ki, nə Tiflis, nə Bakı öz təhlükəsizliyini müstəqil şəkildə həyata keçirməyə qadir deyil. Bu baxımdan rəsmi Bakı və Tiflis bu məsələdə seçim etməyə məhkumdur. Düzdür, Azərbaycanda xarici hərbi birləşmələrin olması məsələsi qanunvericilik səviyyəsində həll olunmalıdır.

Lakin Amerika əsgərləri ilkin mərhələdə müvəqqəti olaraq Azərbaycana gələ bilərlər, növbəti etapda isə bu məsələnin qanunverici həllini tapmaq mümkündür.

Cənubi Qafqazda Amerikanın hərbi mövcudluğuna nail olmaq son dərəcə vacibdir.

Yaxın Şərqdəki son proseslər, İran Əfqanıstan, İraq problemləri, Rusiyanın Azərbaycan və Gürcüstana hərbi müdaxilə təhdidləri də ABŞ qoşunlarının ölkəmizə gəlişini xeyli dərəcədə aktual edir. Lakin bu məsələdə rəsmi Bakının razılığının alınması problematik görünür.

Azərbaycan hakimiyyəti belə bir qərara razılıq verməsi, Tehran və Moskvanın qəzəbinə səbəb ola bilər, odur ki, Bakıya Vaşinqton tərəfindən kompensasiya ödənməlidir.

Bəzi təhlilçilərin fikrincə, belə bir kompensasiya 2015-ci il parlament seçkilərində mövcud iqtidarın dəstəklənməsi ola bilər. Görünür, son zamanlar Azərbaycan hakimiyyətinə qarşı artan təzyiqlər də məhz bu amillə bağlıdır.

Rəsmi Bakı Qərbin tələblərinə əməl etməsə, Azərbaycanda milli demokratik inqilab nəticəsində iqtidara gələcək Qərbyönlü siyasi qüvvələr bu məsələdə mühüm rol oynaya bilərlər. Bir sözlə, rəsmi Bakıya imtina edə bilməyəcəyi təklif olunub.

Bəzi məlumatlara görə, rəsmi Bakı buna razılıq verərsə, ölkə rəhbərliyinin ABŞ səfəri təşkil oluna bilər və yüksək səviyyələrdə keçiriləcək bu görüşlərdə rəsmi Bakı Amerika qoşunlarına "yaşıl işıq" yandıra və əvəzində hakimiyyət üçün hava və su kimi zəruri olan siyasi dəstək qazana bilər.

Azərbaycana yeridiləcək ABŞ qoşunları isə ilk növbədə Xəzər dənizində (Rusiya, İran və Türkmənistanla sərhəddə), Dağıstanla sərhəddə, Cənub bölgəsində və xüsusən də Rusiyanın hərbi nəzarətində olan işğal edilmiş Qarabağ ərazilərində yerləşdirilə bilər.

Bütün bu oyunlarda Azərbaycan kiçik oyunçudur.

**Odur ki, rəsmi Bakının rolunu həddən ziyadə şişirtməyə də ehtiyac yoxdur. Bu oyunda demokratiyanın da qurban gedə biləcəyi ehtimalı yaranır. Geosiyasət başlıca amil olaraq qalmaqdadır...**

# "Ağ Blok"un təqdimatını keçirmək riskli addım idi"

## Tural Abbaslı qurumun sonrakı fəaliyyətindən danışdı

**Xəbər verdiyimiz kimi, avqustun 23-də "Ağ Blok"un ADP zalında təqdimatı keçirildi. Qurumun təsisçilərindən olan Tural Abbaslı tədbirdən razı qaldığını söylədi: "Hazırda cəmiyyətin siyasi proseslərə inamı qalmayıb. Belə bir zamanda iki yüzdən çox tutumu olan zalda namizədlərin təqdimatını keçirmək riskli addım idi. Çünki bu gün cəmiyyətin siyasi aktivliyi çox aşağıdır.**

Seçkilərə az müddət qalmasına baxmayaraq, siyasi qurumlar daxilində əhval-ruhiyyə belə yoxdur. Riski üzərimizə götürdük və uğurlu tədbir keçirdik. Zalın 210-220 civarında tutumu var idi. Amma yenə də ayaq üstə kifayət qədər iştirakçı qaldı. Bu əslində xalqın yeni qüvvəyə, yeni başlanğıca nə qədər həsrət qaldığının, ümidli olduğunun göstəricisidir".

**"Ağ Blok"un təmsilçisi gələcək planlarından da söz açdı**: "Hazırda seçkiyə hədəflənmiş bir blokdan söhbət gedir. Hədəfimiz aktiv şəkildə seçkilərdə iştirak etmək və nəticələr qazanmaqdır. Əldə etdiklərimizi realizə edib, gələcəkdə ona uyğun addımlar atacağıq. Qarşıdakı iki ayda fəaliyyət seçkilərə hesablandığı üçün buna diqqət edirik. Bu işlərin içərisində blokun namizədləri və üzvlərinin sayının artırılması kimi işlər də durur. Artıq danışıqlar başlanılıb. Əsas odur ki, proses gedir. Seçkiləri boykot edib kənarda




durmaq, mübarizə üsulu deyil. Blokun seçkidən sonrakı fəaliyyəti, seçkilərdən sonra müzakirə olunacaq. Yəqin ki, müvafiq addımlar atılacaq".

**Qeyd edək ki, "Ağ Blok"un yaradılması bəzi müxalif partiyalarının ciddi narahatlığına səbəb olub. Son olaraq, Azadlıq partiyasının sədri Əhməd Oruc blokun ünvanına sərt fikirlər səsləndirib**: "Bir neçə müsavatçı gəncin yenicə elan etdiyi "Ağ Blok"u yanlış olaraq mediada seçki bloku kimi təqdim edirlər. Bu cür təqdimatı edənlərin və "Ağ Blok"u yaradanların nəzərinə çatdırmaq istəyirəm ki, qanuna görə, seçki blokunu ancaq dövlət qeydiyyatından keçmiş siyasi partiyalar yarada bilər".

**T.Abbaslı partiya sədrinin fikirlərinə də toxundu:** "Əhməd bəyin nədən belə fikirlər səsləndirdiyi anlaşılan deyil. Mənə qısqanclıqdan doğan fikirlər kimi gəldi. Əlbəttə bilirik ki, qanunvericilikdə blok siyasi partiyaların birliyi kimi qəbul olunur. Bizlər prezidentliyə namizədlin vəkilləri kimi seçkilərdə iştirak edən şəxslərik. Hər şeyi kifayət qədər gözəl bilirik. Əsas olan hakimiyyətin müəyyənləşdirdiyi siyasətlə, hakimiyyətin diktəsi ilə hərəkət etməməkdir. Biz blok dedikdə, bir neçə partiyanın üzvlərinin birləşdiyi qurumu nəzərdə tuturuq. Biz heç bir müsahibələrimizdə blok kimi qeydiyyatdan keçmək yaxud MSK-da bu şəkildə qəbul olunmaq kimi fikirlər səsləndirməmişik. Hakimiyyətin istədiyini qeydə alır, istəmədiyini almır. Əhməd Orucun sözlərindən belə çıxır ki, qeydiyyatdan keçməyən partiya və QHT-lər siyasi arenada fəaliyyət göstərməməlidir. Hazırda onun təmsil olunduğu blokda da qeydiyyatdan keçməyən partiyalar var. Əhməd Oruc sevinməlidir. Çünki rəqabət olan yerdə uğur olur".

❑ **Cavanşir ABBASLI**

# Dünyanın pulu...

## Nə qədər ki, Amerika güclü dövlətdir, dollar da güclü valyuta olaraq qalacaq

**Son bir həftədə dünya ölkələrinin valyutaları ciddi şəkildə dəyər itirib. Dünyanın ikinci böyük iqtisadiyyatına malik Çinin milli valyutası yuanın devalvasiya olmasının ardınca Türkiyədə, Qazaxıstanda və Rusiyada milli valyutalar ABŞ dolları qarşısında dəyər itirib. Analoji təhlükə Azərbaycanı da gözləyir.**

Bütün bu hadisələrin mərkəzində dayanan isə ABŞ dollarıdır. Son bir ildə az qala dünyanın bütün ölkələrində milli valyutalar dəyər itirdiyi halda ABŞ dolları hələ də gücünü qoruyub saxlayır. Əcəba Amerika pulunun bu qədər güclü və dayanıqlı olmasının səbəbi nədir?

Qeyd edək ki, ABŞ-ın milli valyutası olan dollar hazırda yalnız Amerikanın deyil, eyni zamanda dünyanın rezerv pul vahidi hesab olunur. Çünki dünya ticarətinin mühüm bir hissəsi Amerika dolları həyata keçirilir. Bu səbəbdən də dollar dünyanın bütün ölkələrində işləkdir. Dünyada ən böyük məbləğlərlə ifadə olunan neft, qaz, qızıl, o cümlədən sərmayə və beynəlxalq ticarət Amerika dolları ilə aparıldığından avtomatik olaraq dövlətlərin borcları da dollarla hesablanır və ödənilir. Bu səbəbdən də dollara tələbat yük olaraq qalır və biznes dünyasının əsas valyutası imicini qoruyub saxlayır.



Amerikada pul 17-ci əsrdən hazırlanmağa başlasa da, bu günkü dolların tarixi 1785-ci ildə başlayır. Həmin il ABŞ konqresi dolalrın Amerika milli valyutası olması haqda qərar qəbul edir. İlk kağız dollar isə 1861-ci ildə tədavülə buraxılır. 100-lük Amerika dolları hazırda dünyada ən çox yayılmış pul vahididir. Hazırda ABŞ-la yanaşı bir sıra ölkələrdə dollar rəsmi valyuta və ya fəaliyyətdə olan pul vahididir. Hazırda ABŞ 1 trilyon dollardan çox vəsaiti xaricdə saxlayır və buna da bildiyimiz kimi "Eurodollar" deyilir. Dünyanın ən çox alınıb-satılan valyutası dollar qlobal valyuta mübadilələrinin 87 faizində istifadə olunub.

Mütəxəssislərə görə, ABŞ dollarını dünyada hegemon valyuta kimi qoruyub saxlayan ikinci əsas amil ABŞ-ın dünya maliyyə hegemoniyasını yaradan Beynəlxalq Valyuta Fondu və Dünya Bankıdır. 1946-cı ildə yaradılan bu qurumlar vasitəsilə ABŞ dünyanın az qala bütün milli iqtisadiyyatlarına bu və ya digər formada "yol tapıb".

1971-ci ildə ABŞ-ın dolları qızıl ehtiyatı ilə indeksləşdirməkdən imtina etməsindən sonra dolların çapı və dünyada yayılması faizi daha da artıb. Prezident Riçard Nikson Bretton Vuds razılaşması ilə müəyyənləşdirilmiş sabit xarici valyuta məzənnələrini dəyişməklə bu təzyiqi azaltmağa çalışdı. Almaniya və Yaponiya müqavimət göstərdikdə isə birtərəfli şəkildə fəaliyyət göstərərək 15 avqust, 1971-ci il tarixində dollarla qızıl arasındakı əlaqəni kəsdi. Hazırda dolların istifadə həcmi ABŞ-ın dünya ticarətindəki payından qat-qat çoxdur. Bu həm də o deməkdir ki, artıq dollar dünya valyutasıdır.

Və nəhayət dolların güclü olmasının əsas səbəblərindən biri də Amerika iqtisadiyyatıdır. Son illərdə dünya iqtisadiyyatları böhran yaşamasına rəğmən Amerika iqtisadiyyatı sürətlə böyüyür. XIX əsrin sonlarından etibarən ABŞ iqtisadiyyatının hədsiz böyüməsi və genişlənən ticarət əlaqələri dünya əhalisini dollarla iş görməyə öyrəşdirdi. Biznesmenlər, ayrı-ayrı şəxslər və hökumətlər bu vərdiş ətrafında müəssisələr yaratdılar. Asiyadan Avropa və Latın Amerikasına qədər hər bir böyük şəhər və limanda dollardan on illərlə geniş şəkildə istifadə olundu. İnsanlar uzun müddət idxal və ixrac müqavilələrini dollar üzrə bağlayırdı. Valyutanın bu dərəcədə önə çıxması illərlə müəssisə, maliyyə qurumları və mərkəzi bankları dollar əmanətləri saxlamağa və investisiya qoymağa yönəltdi. Xüsusən də İkinci Dünya Savaşından sonra ABŞ-ın dünya üzərində hegemoniyasının artması, dünyanın iqtisadi nəhənginə çevrilməsi dolların da mövqelərini gücləndirdi.

**Heç şübhəsiz ki, dolların "gücünün" arxasında həm də Amerika gücü dayanır. Dolların arxasında dünyanın az qala bütün nöqtələrində güc sahibi kimi çıxış edən superdövlət Amerikanın gücü dayanır. Bu səbəbdən də bir çox analitiklər dolların taleyini ABŞ-ın siyasi gücü ilə mütənasib olaraq hesablayırlar. Nə qədər ki, Amerika güclü dövlətdir, dollar da güclü valyuta olaraq qalacaq.**

YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015

# Mərkəzi Bankın son addımları manatı xilas edəcəkmi...

**Ötən həftənin şənbə günü manatın növbəti dəfə devalvasiyaya uğrama ehtimalı insanların yuxusunu ərşə çəkdi. Həm sadə vətəndaşlar, həm də iqtisadçı ekspertlər ötən şənbə gününü manat üçün kritik gün adlandırdılar. Manatın növbəti dəfə devalvasiyaya gedəcəyi ilə bağlı əsaslandırılmış proqnozlar insanların yenidən valyutadəyişmə məntəqələrinə axın etməsinə səbəb oldu, bir çox məntəqələr müştərilərin üzünə qapadıldı.**

Lakin gözlənilənlərin əksinə olaraq, şənbə günü qeyri-iş günü olmasına baxmayaraq Mərkəzi Bank cəmiyyətə məlumat yayaraq bildirdi ki, vəziyyət nəzarətdədir və banklara dolları rəsmi məzənnədən baha satmamaqla bağlı tapşırıq verilib: "Son günlər bəzi kütləvi informasiya vasitələrində valyuta bazarında xarici valyuta qıtlığı olduğu və satışın həyata keçirilmədiyi barədə məlumatlar yayılır. Bununla əlaqədar Azərbaycan Respublikası Mərkəzi Bankı bildirir ki, həm nağd, həm də qeyri-nağd valyuta üzrə bankların tələbatı tam təmin olunmuşdur və yeni ehtiyacların ödənilməsi üçün də kifayət qədər valyuta ehtiyatı mövcuddur. Bankların filial və şöbələri, o cümlədən valyuta mübadilə şöbələri nağd xarici valyuta satışını həyata keçirirlər".

Bu məlumat bazardakı gərginliyi nisbətən sakitləşdirsə də, devalvasiya ehtimalını istisna etmədi. Üstəgəl neft günə ucuzlaşma ilə başladı və dünya bazarında neftin qiyməti psixoloji həddi olan 45 dollardan da aşağı düşdü.

Mərkəzi Bank isə bu gün gözləntilərin əksinə, daha bir addım ataraq avqustun 24-nə olan rəsmi məzənnədə manatı dollar qarşısında cüzi də olsa bahalaşdırdı. Belə ki, dolların rəsmi məzənnəsi nisbətən düşərək 1, 0470 (əvvəlki günlərdə 1,0479) manat təşkil etdi. Avro isə manata nəzərən artaraq 1,1994 (əvvəlki günlərdə 1,1814) oldu.

Bəs, görəsən Mərkəzi Bankın atdığı psixoloji addımlar valyuta bazarını dollarlaşmadan xilas edəcəkmi? İnsanların devalvasiya qorxusunu və nəticədə iqtisadiyyatda yaranan problemləri hansı yolla həll etmək mümkündür? Mövcud valyuta ehtiyatları manatı hansı müddətə devalvasiyadan xilas edə bilər?

**"Yeni Müsavat"a danışan Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov** bildirdi ki, valyuta bazarındakı ajiotajı aradan qaldırmaq üçün Mərkəzi Bank ictimaiyyətə açıq siyasət yürütməlidir: "Ümumiyyətlə, son vaxtlar Mərkəzin Bankın təqdirəlayiq islahatları olub. Komission haqlarının 1 faizə endirilməsi, kredit faizlərinin 25-29 faiz həcmində müəyyənləşdirilməsi və sair lazımi addımlar idi. Ancaq yenə də bank sistemində islahatlara böyük ehtiyac var. İri banklar yaradılmalıdır, maliyyə dövriyyəsi kiçik olan, kredit portfeli olmayan xırda banklar ya başqa banklara birləşməlidir, ya da onlar haqqında bir qərar verilməlidir. Ümumiyyətlə, islahat paketi işlənib hazırlanmalıdır. İkincisi də, son zamanlar manatın yenidən ucuzlaşması haqqında gəzən söhbətlərlə ilə bağlı valyutadəyişmə məntəqələrində də gərginlik yaşanır. Ümumiyyətlə, neftin qiymətinin ucuzlaşması, rublun ucuzlaşması, Çində, Qazaxıstanda baş verən devalvasiya və sair proseslər də ölkəmizdə izlənir və insanlar müəyyən qədər ehtiyat edirlər. Ancaq Azərbaycanın imkanları, ehtiyatları var. Lakin bu ehtiyatlardan da düzgün istiadə etmək lazımdır, çünki, neftin qiymətində bundan sonra da enmələr baş verə bilər. Ancaq devalvasiyaya getməyin də daha uyğun yolu var. Mən ötən dəfə də demişdim ki, yumşaq, üzən devalvasiyaya getmək lazımdır ki, insanlar çox əziyyət çəkməsinlər. Gözləmək lazım deyil ki, neftin qiyməti 30 dollara düşsün, sonra kəskin devalvasiya baş versin. Onsuz da gec-tez manat bazarda öz həqiqi dəyərini tapmalıdır və müəyyən qədər devalvasiyaya getməlidir. Yaxşı olar ki, Mərkəzi Bank bunu üzən məzənnə siyasəti ilə həyata keçirsin və heç bir ajiotaj yaşanmasın".



**Vahid Əhmədov: "Gec-tez manat bazarda öz həqiqi dəyərini tapmalıdır və müəyyən qədər devalvasiyaya getməlidir"**



**Samir Əliyev: "Mərkəzi Bankın valyuta ehtiyatları azaldığından manevr imkanı da məhduddur və devalvasiyaya getməyə məcbur ola bilər"**

**İqtisadçı-ekspert Samir Əliyev** isə neftin qiymətində kəskin bahalaşma olmazsa, növbəti devalvasiyanın qaçılmaz olduğunu qeyd etdi: "Hazırda durum ondan ibarətdir ki, manata təzyiqlər artıb. Kənarda baş verən proseslər, manatın devalvasiuyası ilə bağlı narahatlıq insanlarda çaşqınlıq yaradıb. Həftə başlayan kimi neftin qiyməti də 45 dollarlıq psixoloji həddi də keçərək 44 dollar 30 sentə düşdü, gün ərzində daha da düşə bilər. Bir müddət öncə neftin qiyməti 60 dollara yaxın idisə, artıq bu gün 40 dollara yaxınlaşır. Mərkəzi Bankın rəhbəri də açıqlamasında demişdi ki, neft 40 dollara qədər düşərsə, tədiyyə balansında mənfi proses olmayacaq. Yalnız bu həddi keçərsə manatın məzənnəsinə yönündən baxmaq olar. Yəni bu sözdən belə çıxır ki, neft 40 dollara qədər düşərsə manatın məzənnəsində heç bir dəyişiklik olmayacaq. Qonşu ölkələrdə də bir çox proseslər baş verir, rubl ucuzlaşmaqda davam edir, Qazaxıstan öz valyutasını ucuzlaşdırdı, türk lirəsi ucuzlaşır. Diqqət etsək, fevral ayında manatın devalvasiyasından öncəki proseslər yenidən baş verməkdədir. O dövrdə də deyilirdi ki, heç bir devalvasiya olamayacaq, ancaq devalvasiya oldu. Bu gün də oxşar proseslər gedir, neft ucuzlaşır, qonşu ölkələrin valyutaları dəyər itirir. Manat üçün təhlükə təkcə neft deyil, ikinci biur səbəb də ölkədən kapitalınının güclənməsidir. Kapital axınının olması ölkədən dollar axını deməkdir. Ölkəyə gələn dollar ölkədən çıxan dollardan daha azdır və bu da manat üçün təhlükə yaradır".

**Ekspertin proqnozlarına görə, bu həftə manatla bağlı olduqca gərgin həftə olacaq, manatla bağlı kəskin qərar verilə bilər:** "Neft kəskin bahalaşmasa, devalvasiyanın olması qaçılmazdır, ancaq əsas məsələ bunun nə zaman baş verəcəyidir. Bu qərar isə Mərkəzi Bank tərəfindən verilir. Lakin hazırki dövr üçün devalvasiyanın olmayacağını şərtləndirən iki səbəb var. Bunlardan biri qarşıdakı parlament seçkiləridir. Bildiyiniz kimi, hökumət seçki ilində belə bir kəskin addım atmaq istəməz. İkinci bir səbəb isə odur ki, birinci devalvasiyanın vurduğu ziyan hələ də aradan qalxmayıb, bank sektoru üçün bu öldürücü zərbə ola bilər. Qiymət artımı daha da kəskinləşə bilər. Bu amillər hökuməti devalvasiyadan çəkindirən amillərdir. Lakin elə səbəblər də var ki, manatın ucuzlaşmasını qaçılmaz edir, bu haqda daha öncə danışdıq. Artıq Mərkəzi Bankın valyuta ehtiyatları da zalıb. Əgər ilin əvvəlində Mərkəzi Bank manatın saxlanılması üçün 4-5 milyard manat vəsait xərcləyirdisə bundan çəkinmirdi. Ancaq bu gün ehtiyatlar 8,5 milyard manata qədər azalıb və Mərkəzi Bankın manevr imkanı daha məhduddur və devalvasiyaya getməyə məcbur ola bilər".

**Mərkəzi Bank atdığı son psixoloji addımlara gəlincə, ekspert bildirdi ki, ötən həftə əgər həmin məlumat olmasaydı, bəlkə də şənbə və bazar günləri valyutadəyişmə məntəqələrində dollar 1.2 AZN-ə satılardı:** "Ancaq Mərkəzi Bank bu məktubla banklara xatırlatdı ki, müəyyən olunan həddi keçə bilməzsiniz. Rəsmi iş günü olmasa belə Mərkəzi Bank bu addımı atdı. Cəmiyyətdə ajiotaj yaranmasının bir səbəbi də odur ki, Mərkəzi Bank özünün çox qapalı qurum kimi aparır, açıqlamaları gecikdirir, məhdud informasiyalar açıqlayır. Mərkəzi Bank insanlarla işini yaxşı qurmadığından bu ajiotaj gözlənilən idi. Həm də insanlarda artıq inamsızlıq yaranıb. Ötən dəfə də rəsmi şəkildə deyilmişdi ki, devalvasiya olmayacaq, lakin bu baş verdi. Mərkəzi Bank bu gün psixoloji addım ataraq, cəmiyyətin dolların bahalaşmasını gözlədiyi vaxtda kursu bir qədər aşağı salıb. Amma bu problemi həll etmədi, bu qərardan sonra valyutadəyişmə məntəqələrinin qarşısında insanlar azalmadı. Mən inanmıram ki, Mərkəzi Bank manatın kursunu sabit saxlamaq üçün 4-5 milyard vəsait xərcləməyə hazır olsun, uzaq başı milyard vəsait xərclənə bilər. Əks halda məcbur olub devalvasiyaya gedəcək. Manatın birinci dəfə ucuzlaşmasından sonra Mərkəzi Bank tədricən ucuzlaşmaya getməli idi. Lakin bu baş verməndi və yenidən manatın məzənnəsi "ölüm-qalım" məsələsinə çevrilib. Bu da iqtisadiyyata öz neqativ təsirini göstərir".

❑ **Nərgiz LİFTİYEVA**

# Neftin qiyməti düşür, bəs benzin niyə ucuzlaşmır...

## "Aİ 95 və 98 markalı benzinin qiyməti ucuzlaşmalıdır"



**Neftin qiyməti dünya bazarında günbəgün aşağı düşməkdə davam edir. Buna uyğun olaraq benzinin də qiyməti bir çox ölkələrdə ucuzlaşır. Ancaq neft ölkəsi olan Azərbaycanda benzinin qiymətində heç bir ucuzlaşma müşahidə edilmir. İnsanları da haqlı olaraq bu sual düşündürür ki, neft ucuzlaşdığı halda, benzinin bu qədər baha qiymətə olmasının səbəbi nədir?**

**İqtisadçı-ekspert Samir Əliyev** deyir ki, neftin qiyməti aşağı endikcə benzin ucuzlaşdırılmalıdır: "Benzinin ucuzlaşmamasına çox səbəb göstərmək olar. Amma əsas səbəb onunla bağlıdır ki, biz neft idxal etmirik. Neft idxal edən ölkələrdə benzinin qiyməti neftin dünya bazarındakı qiyməti ilə birbaşa bağlıdır. Dünya bazarında neft bahalaşanda o ölkələrdə də benzin bahalaşır və yaxud da əksinə. Bizdə isə daxildə SOCAR tərəfindən istehsal olunur. Bizim 92 markalı benzinimiz daxili istehsal olduğuna görə dünya bazarındakı tendensiyaya təsiri yoxdur. Bu baxımdan da qiymətlər dəyişmir. Bəs 95 niyə dəyişmir? Çünki 95 markalı benzin xaricdən ixrac olunur. İnsanların idxal olunan 95 və 98 markalı benzinin qiymətinin niyə ucuzlaşmaması ilə bağlı verdiyi sual haqlıdır. SOCAR qonşu ölkələrə - Gürcüstana ixrac etdiyi benzini ucuzlaşdırır, amma Azərbaycanda bunu ucuzlaşdırmır. Hansı ki, 95 markalı benzini Azərbaycana gətirən şirkətlərdən biri və ən əsası SOCAR-dır. Görünür, ya xərclərin çoxluğu, ya da daha çox mənfəət götürmək istəyi onları bu cür davranmağa vadar edir. Hər bir halda mən düşünürəm ki, neftin qiymətinin indiki səviyyəsində idxal olunan 95 və daha yüksək 98 markalı benzinin qiyməti ucuzlaşmalıdır".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015



# Həmkarını maşınla vuran polis saxlanıldı

**İdarə etdiyi avtomobillə Yol Patrul Xidməti əməkdaşını vuran şəxs saxlanılıb. Virtualaz.org Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən bildirir ki, avqustun 23-də saat 01 radələrində Sabunçu rayonunun Bakıxanov qəsəbəsində polis serjantı Aydın Babayev xidmətdən kənar vaxtı idarə etdiyi "Mercedes" markalı avtomobillə orada "BMW" markalı avtomobildə xidmətdə olan Bakı BPİ DYPİ YPX-nin inspektoru, polis serjantı Samir Dənziyevi vurub və hadisə yerini tərk edib.**

S.Dənziyev xəstəxanaya yerləşdirilib. Görülmüş tədbirlərlə A.Babayev saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

Aznews.az xəbər verir ki, polisi vuran sürücü 99 YP 446 nömrəli avtomobildə xidmət aparan polislərin "saxla" əmrinə tabe olmayıb. Buna görə də polislər onu Heydər Əliyev prospekti ilə təqib etməyə başlayıb. Köməyə gələn 99 YP 455 nömrəli yol polisi avtomobili Bakıxanov qəsəbəsi ("Akkord"un binalarının yaxınlığı) ərazisində tabesizlik göstərən və avtoxuliqanlıq hərəkətləri edən sürücünü saxlamaq istəyib. Bunun üçün S.Dənziyev avtomobildən düşərək sürətlə hərəkət edən "Mercedes"in qarşısına keçib və hadisə də bu zaman baş verib.

**Təqib olunan sürücü saxlanılandan sonra məlum olub ki, o da polis əməkdaşıdır və ölkədə fəaliyyət göstərən diplomatik korpusların birində xidmət aparır.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Şirvanda iki nəfər bir-birini bıçaqlayıb

**Şirvan şəhərində bıçaqlanma hadisəsi baş verib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, avqustun 24-də Şirvan şəhərində şəhər sakini Kamran Heydərov və Sabirabad rayon sakini Rövşən Salavyov münaqişə zəminində bir-birinə bıçaqla xəsarət yetiriblər.**

Onlar xəstəxanaya yerləşdirilib. Şirvan Şəhər Polis Şöbəsi tərəfindən araşdırma aparılır.



# Rusiyada oğurluqda şübhəli bilinən azərbaycanlı qadın saxlanılıb

**Rusiyanın Saratov şəhərində uşaq malları mağazasından oğurluq etməkdə şübhəli bilinən Azərbaycan vətəndaşı saxlanılıb. APA-nın "news.sarbc.ru" saytına istinadən verdiyi xəbərə görə, Saratovdakı "Uşaq dünyası" mağazasından 3,3 min rubl dəyərində məktəbli forması komplekti oğurlandığı müəyyənləşdirilib.**

Hadisəni törətməkdə şübhəli bilinən 48 yaşlı qadın saxlanılıb. Onun adı açıqlanmayıb.

Oğurluq mal müsadirə olunub. Fakt üzrə cinayət işi açılıb.

# Azərbaycanın rayonlarında leysan yağacaq

**Avqustun 25-də Azərbaycanda buludlu hava şəraitinin üstünlük təşkil edəcəyi, arabir yağış yağacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan APA-ya verilən məlumata görə, Bakıda mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək.**

Abşeron yarımadasında gecə 19-22, gündüz 24-28, Bakıda gecə 20-22, gündüz 25-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 23-24, Zaqulba, Buzovna, Mərdəkan, Şüvəlanda 24-25, Türkan, Hövsan, Şıx, Sahildə 25-26 dərəcə isti olacaq. Azərbaycanın rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23, gündüz 25-30, dağlarda gecə 8-13, gündüz 14-19 dərəcə isti olacaq.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34




# Bakıda işıqforların vaxtları dəyişdirilir

Bu, tədris ilində sıxlığın azaldılması məqsədilə həyata keçirilir

**Bakı şəhərinin yollarında sentyabr ayında yeni tədris ilinin başlaması günün pik saatlarında avtomobillərin sayının artacağını nəzərə alaraq, Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi (NİİM) tərəfindən işıqforların vaxt planlarında yenilənmə işləri aparır.**

Bunu "Report"a NİİM-in mətbuat xidmətinin rəhbəri Şəfa Mehmanqızı bildirib. Onun sözlərinə görə, ənənəvi olaraq, sentyabrın 15-dən dərslər başlayarkən Bakıda gur saatlarda yenidən avtomobillərin sayı artacaq və yolda hərəkəti asanlaşdırmaq və sıxlığın qarşısını almaq məqsədilə NİİM yaşıl dalğaların sayını artırır.

"Bu, əsasən təhsil ocaqları olan ərazilərdə həyata keçirilir, yəni universitetlər, texnikumlar və orta təhsil müəssisələri olan əraziləri əhatə edir. Təxminən bir küçədə 3-4 işıqforun ardıcıl olaraq yaşıl yanması, yəni həmin ərazidə avtomobillərin dayanmadan hərəkəti nəzərdə tutulur. Həmin ərazilərdə yaşıl dalğaların sayı xüsusilə artırılıb və bu proses davam edir. Düşünürük ki, bu, pik saatlarda dərsə gedən və dərsdən gələn vaxtlarda avtomobillərin sayının müəyyən qədər azalmasına, sıxlığın aradan qalxmasına təsir edəcək", - deyə Ş.Mehmanqızı qeyd edib.

# Hamama oğru girdi

**Bakıda hamamdan oğurluq edən şəxslər saxlanılıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, avqustun 23-də Binəqədi rayonu ərazisində yerləşən "Şah" hamamının xəzinəsindən 1845 manat oğurlanıb.**

Binəqədi Rayon Polis İdarəsinin 7-ci Polis Bölməsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətmiş orada işləyənlər - Yevlax rayon sakini Kərimxan Kərimov, Ağdaş rayon sakini Vüsal Əyyublu və Ucar rayon sakini Hüseyn Cəfərzadə tutulublar.

# Sabirabad sakini həmyerlisini qətlə yetirib

**Sabirabad rayonunda qətl hadisəsi baş verib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, avqustun 23-də Sabirabad rayonunun Qalağayın kəndində kənd sakini Xəqani Miriyev münaqişə zəminində həmkəndlisi Ənvər Abdullayevə bıçaqla xəsarət yetirib.**

Ə.Abdullayev hadisə yerində ölüb. X.Miriyev könüllü olaraq Rayon Polis Şöbəsinə gələrək istintaqa təslim olub.

# 16 yaşlı qızı avtomobillə vuran sürücü hadisə yerindən qaçıb

**Bakıda piyadanın vurulması ilə nəticələnən yol qəzası baş verib. APA-nın məlumatına görə, hadisə Bakıxanov qəsəbəsi Fətəliyev küçəsi 5-in qarşısında qeydə alınıb.**

Naməlum avtomobil yolu keçən piyada, 1999-cu il təvəllüdlü Günel Vaqif qızı Mirzəyevanı vurub və hadisə yerindən qaçıb. G.Mirzəyeva xəsarətlə 3 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdirilib. Hazırda polis yol-nəqliyyat hadisəsini törədən şəxsin müəyyən edilərək tutulması istiqamətində iş aparır.

YENİ MÜSAVAT
N 186 (6214) 25 avqust 2015

# Qadınlar niyə ailəsindən qaçır?

## Psixoloq Dəyanət Rzayev: "Qadınların evdən qaçması halları daha çox bölgələrdə baş verir"

**İyulun 31-də evdən qaçan və bir neçə gün əvvəl qayıdan Ucar rayonunun Qaracallı kənd sakini 24 yaşlı 3 uşaq anası Şələlə Rüstəmovanın xəbəri sosial şəbəkələrdə və xəbər portallarında geniş müzakirə olundu. Kimisi uşaqlarını atıb qaçdığı üçün qadını qınadı, kimisi qadının ərini, kimisi isə ailəsini...**

Ümumiyyətlə, Azərbaycanda evli qadınların və qızların evdən qaçması ilə bağlı xəbərlərə tez-tez rast gəlinir. Maraqlıdır, qadınların evdən qaçmalarında serialların, sosial şəbəkələrin təsiri varmı? Qadın niyə ailəsini və uşaqlarını atıb qaçır?

**Psixoloq Dəyanət Rzayev** serialların əsasən gənc qızlara təsirinin olduğunu bildirdi: "Qadınların hüquqları ilə bağlı vəziyyət çox acınacaqlıdır. Qadınların evdən qaçması halları daha çox bölgələrdə baş verir. Baş verən son olayda qadının gizli telefon işlətməsi haqda məlumat var. Bu qadın niyə aşkar şəkildə telefon işlətməsin ki?! Kişinin istəkləri olduğu kimi qadının da istəkləri var. Mən düşünmürəm ki, qadın qaçanda məhz kiməsə görə qaçır, xəyanət edir. Sonuncu olayda da həqiqətlər tam bilinmir. Ola bilər ki, qadının əri pul qazanmaq üçün hansısa xarici ölkəyə, Rusiyaya getsin. Qadın da qalır tək və həmin qadına evdə olan münasibəti heç kim bilmir. Bəlkə qaynana-qayınata həmin qadına işgəncə verirlər. O qədər bu cür hallar baş verir. Ümumiyyətlə, qadınlarda analıq hissi çox güclü olur. Nə baş verə bilər ki, bir ana 3 uşağını atsın və çıxıb getsin. Ola bilər ki, qadında ərlik çatışmazlığı olsun və bu analıq hissini də üstələsin. Ona görə də o uşaqlarını atıb getsin. Amma digər tərəfdən baxanda qadının gizli telefon işlətməsi normal deyil. Axı qadının telefon işləməsi niyə yasaqlansın ki?! Biz 19-cu əsrdə yaşayırıq?! Qadın telefonda işlədə bilər, əri ilə danışa da bilər. Hətta sosial şəbəkələrdə də olub rəfiqələri, sinif yoldaşları ilə də ünsiyyət qura bilər. Bu da insandır axı, o da darıxır. Ola bilər ki, onu evə qapadıb evdən çölə çıxmağa qoymayıblar ki, bütün günü iş gör, 3 uşağa bax. Əri yanında olmasa da qaynanası-qayınatası bunu harasa gəzməyə aparmalıdırlar. Əri Rusiyaya gedən qadın da insandır. Əgər biz elmi tərəfdən yanaşsaq bu qadının da fizioloji istəkləri var və bu normal haldır. Ər niyə öz arvadını özü ilə aparmamalıdır? Bəlkə də qaçan qadınlar öz evlərinə, ailələrinin yanına qayıtmaq istəyər. Amma o haradan bilsin ki, qayıdanda onu daha da pis bir münasibət gözləməyəcək. Buna görə də qadınlar yenidən qayıtmağa qorxurlar. Əri uzaqda yaşayan qadın bəlkə də ərinin evə qayıtması üçün qaçır. Hər bir qadın üçün ərinin yanında olmasını istəməsi, ər qayğısı istəməsi normal haldır. Qadını qınamaq, onların qaçmasına o dəqiqə əxlaqsızlıq kimi qələmə vermək düzgün deyil. Əgər sonuncu qaçan qadının əgər kənarda bir sevdiyi olsaydı o özü ilə uşaqlarını da aparardı. Ailədə problem olmasa qadın qaçmaz. Qadın var ki, təhqir edilməyi, alçalmağı götürür və ailə həyatını davam etdirir. Qadında var ki, bütün bunları qəbul edə bilmir. Ola bilər ki, həmin qadını ailəsi heç vaxt döyüb-söyməyib, ona görə də ər evində həmin münasibəti qəbul edə bilmir. Hansısa qaçan qadının evə qayıtması isə ayrıca təhlükəlidir. Az eşitməmişik ki, ər uşağının gözü qarşısında arvadının başını kəsdi və ya ər keçmiş arvadının da başını kəsir, öldürür. Bu da o deməkdir ki, Azərbaycan kişilərinin arasında psixopatiya prosesi gedir".



**Psixoloq evli qadınların evdən qaçmasının səbəblərinin serialların təsirindən olmadığını dedi:** "Evli qadın seriala baxanda dərk edir ki, bu seriallar reallıqdan uzaqdır və orada sonluqlar yaxşı bitir. Amma o Azərbaycan reallıqlarında yaşadığı üçün bilir ki, pulu bitəndən sonra qalacaq ortada. Mən inanmıram ki, qadın bir seriala görə evini tərk etsin. Seriallar xəyallarla yaşayan qızlara təsir edə bilər. 24 yaşında 3 uşağı olan qadın hansı kişiyə lazım ola bilər ki?! Əgər xəyallarında kimisə sevibsə, o artıq çoxdan bitib. Mən düşünmürəm ki, erkən yaşda ailə quranların həyatında nə vaxtsa sevgilisi olsun. Nəyə görə kişi evini, uşaqlarını tərk edib gedəndə onu qınamır, demirlər qaçıb. Ancaq qadın bunu edən kimi bunu qabardırlar. Təkcə azərbaycanlılarda belə bir şey var ki, kişi kişidir gedə və istədiyini edə bilər. Uşaqların tərbiyəsi ilə kişi də məşğul olmalıdır. 3 uşaqla heç kim əxlaqsızlıq etməz. O qadın da bilir ki, Azərbaycanda 3 uşaqlı qadınla heç kim evlənmir, ümumiyyətlə ona ciddi yanaşmır".

❑ **Günel MANAFLI**

# 14 saylı cəzaçəkmə müəssisəsindəki ölüm işinə xitam verildi

## Məhkumun yaxınları qərarla razı deyil; onlar ədalətli araşdırma tələb edir

**Məhkum Elşad Babayevin ölümü ilə bağlı başlanmış cinayət işinə xitam verilib. Bu haqda "Yeni Müsavat"a mərhumun bacısı Simuzər Babayeva məlumat verib. S.Babayeva qardaşının 14 saylı cəzaçəkmə müəssisəsində öldürüldüyünü sübut edən fotolar və məhkumların şahid kimi ifadə verə biləcəkləri təqdirdə cinayət işinə xitam verilməsini qanunsuz saydığını söyləyib:**

"Yanvarın 29-da baş prokurorun 1-ci müavini Rüstəm Usubov məni qəbul edəndə demişəm ki, cinayət işinin bu cür aparılmasına etiraz edirəm. Qardaşımı dekabrın 13-də vəhşicəsinə döyüblər. Ancaq 22 dekabradək, yəni ölən günədək onun yanına həkim buraxılmayıb. Mənim qardaşıma yemək və su verməyiblər. Mən Usubovdan soruşdum ki, nə üçün mənim qardaşımla "kars"da olan və onun ölümünə şahid olan Zaur adlı məhkum bu günədək dindirilməyib. Tələb etmişdim ki, vəkil Qurban Məmmədov dindirilsin. Çünki o, mətbuatda açıqlama verib ki, qardaşımın ölümü ilə bağlı çox fakt bilir. Hələ onda Rüstəm Usubov yanındakılara göstəriş verdi ki, Zaur və Qurban Məmmədov dindirilsin. Dindirməyiblər. Necə ola bilər ki, istintaq 14 saylı cəzaçəkmə müəssisəsində qardaşımın öldürülməsindən sonra 2 kompyüterin sındırılmasına görə 2 məhkumu müəyyən edə bilir, amma qardaşımı öldürən nəzarətçiləri tapmır? Niyə nəzarətçiləri cinayət məsuliyyətinə cəlb etmirlər? Qardaşımı öldürən nəzarətçilər bu gün də əl-ayaqlarını sallayıb gəzir, adam öldürərək cəzasız qalırlar. Budur ədalət?"



**S.Babayeva deyib ki, qardaşının qatilləri cəzalarını almayınca geri çəkilən deyil**: "Bu işi Qaradağ Prokurorluğundan alıb Bakı Şəhər Prokurorluğuna verəndə tələb etdik ki, həmin şəxsləri cianyət məsuliyyətinə cəlb etsinlər. Vaxtı uzadırlar, elə bilirlər ki, geri çəkiləcək, yorulacağıq. Mən qardaşımın qatilləri cəza almayınca dayanan deyiləm. Müstəntiq Cavid Abbasovun rəhbərlik etdiyi istintaq qrupu ilk gündən yerində sayırdı. Guya həmin qrup qardaşımın ölümü ilə bağlı obyektiv araşdırma aparacaqdı. Hazırda verdikəri qərar əvvəldən bəlli idi. Biz gözləyirdik ki, belə bir qərar verə bilərlər. Çünki istintaq mənə məktub yazmaqla işini bitmiş bilirdi. Düşünürdülər ki, qardaşımın meyitini eksqumasiya olunmasına razı olmayacağam. Gördülər ki, razıyam. Əlimdə qardaşımın morqda çəkdiyim fotoları var. Həmin fotolarda qardaşımın bədəni üzərində ağır bədən xəsarətlərinin olduğu görünür. Onu döyüb öldürüblər, bunun şahidləri də var. Mən qardaşımın qatilləri tutmayana qədər susmayacağam. Bunu hər kəs bilsin. Baş Prokurorluğa da üzümü tutub deyirəm - vəzifənizi icra edib cinayəti araşdırın, qardaşımın qatillərini cəzaya çatdırın".

**E.Babayevin ailəsinin nümayəndəsi Xalid Bağırov deyib ki, Bakı Şəhər Prokurorluğunun müstəntiqi Cavid Abbasovun qəbul etdiyi qərar qanunsuz və əsassızdır:** "Bizə qəbul etdikləri qərarın surətini də təqdim etmirlər. Deyirlər ki, qanunda bu nəzərdə tutulmayıb. Əslində isə bunun özü də qanunsuzdur. Çünki qanunda qərarın nümayəndəyə verilməsi qadağası yoxdur. İstənilən halda ölkədaxili bütün mümkün məhkəmə instansiyalarını keçib tükədəcəyik. Çünki ölkə daxilində bu işə ədalətlə, qanunun aliliyi prinsipinə riayyət etməklə baxılması mümkünsüzdür. Bilirsiniz ki, Elşad Babayevin ölümündən sonra Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlamışdılar. Mərhumun yaxınları isə onun döyülüb öldürülməsi ilə bağlı cinayət işinin başlanmasını tələb edirdilər. Nə bunu etdilər, nə də ki, özlərinin başladığı maddə üzrə hər hansı bir qanuni tədbir gördülər".

Qeyd edək ki, ötən il dekabrın 22-də Penitensiar Xidmətin 14 saylı Cəzaçəkmə Müəssisəsində məhkum Elşad Babayev dünyasını dəyişib. Ölümündən sonra onun meyiti Qaradağ rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb. Bacısı S.Babayeva orada qardaşının fotolarını çəkib və ictimailəşdirib. İş üzrə araşdırma aparmalı olan istintaq orqanına da həmin fotoları təqdim edib. Amma gözlənildiyinin əksinə olaraq məhkumun ölümü ilə bağlı Qaradağ Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlanmışdı. Sonradan isə işi Qaradağ Prokurorluğundan alıb Bakı Şəhər Prokurorluğuna vermişdilər...

**Yazmışdıq, bir də yada salaq ki, prokurorluq orqanının bir məhkumun döyülərək, işgəncə verilərək öldürülməsinə yanaşması ölkənin cəzaçəkmə yerlərində yeni qanlı cinayətlərə yol açacağı şübhəsizdir. Fakt budur ki, məhkumu öldürənlər bu gün 14 saylı Cəzaçəkmə Müəssisəsində çalışır və 2015-ci ilin dekabrında oxşar cinayətə yol verməyəcəklərinə də təminat yoxdur.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT

Son səhifə

*N 186 (6214) 25 avqust 2015*



## Kərə yağı haqqında bilmədikləriniz

**Hər bir insan gündə ən azı 60 qram kərə yağı yeməlidir. Məhz bu məhsul əsl vitamin və makroelement qaynağıdır. Keyfiyyətli kərə yağı A, E, D vitaminləri, dəmir, kalsium, kalium, maqnezium, fosfor natrium, mis, manqan, sinklə zəngindir. Amma məhz bu süd məhsulunun süfrənizdə olması üçün kərə yağı alarkən nələrə diqqət etmək lazımdır?**

Məsələ ondadır ki, bir çox spred yağları qablarının üzərinə kərə dadlı, kərə spredi, kərə yağı ilə kimi yazılar yazmaqla istehlakçılar arasında çaşqınlıq yaradırlar.

Kərə yağı alarkən ilk növbədə tərkibini diqqətlə oxuyun. Əsl kərə yağı yalnız inək südündən hazırlanır. Əgər yağın tərkibində bitki yağı, palma, yerfındığı, kokos yağı və yaxud süd yağı əvəzedicisi adlı inqrident olarsa, o, kərə yağı deyil. Onun ucuz analoqudur. Həmçinin, spred və marqarinin tərkibində çox miqdarda aromatizatorların, konservantların və emulqatorların olması mümkündür. Kərə yağı isə ancaq və ancaq 100 faiz təbii inək südündən hazırlanır. Aldığınız yağın əsl kərə yağı olub-olmadığını ev şəraitində yoxlamaq üçün onu dondurucuya qoyun və 10 dəqiqədən sonra çıxararaq, bir dilim kəsin. Yağ parçalanarsa aldığınız əsl kərə yağıdır. Yox, əgər hamar kəsilibsə, o zaman aldığınız spreddir.

# Arvadına görə dağ yardı

**Yolu kəsən dağa görə arvadını itirən Hindli Majhi 22 il çalışaraq dağı yarmağı bacarıb. Hindistanın Bihar əyalətinə bağlı Gehlour qəsəbəsində yaşayan Majhi 1959-cu ildə avtomobil qəzasına düşən arvadını 55 kilometr uzaqlıqdakı xəstəxanaya zamanında yetişdirə bilmədiyi üçün itirib. Həyat yoldaşını itirməyi qəbul edə bilməyən Majhi, başqalarının da həyat yoldaşlarını itirməməsi üçün qəsəbənin yaxınlığındakı dağın içindən keçid açmağa qərar verib. 22 il boyunca sadəcə bir çəkic və bir kəsici ilə 110 metrlik keçid açan Manjhi 73 yaşında xərçəng xəstəliyinə tutularaq həyatını itirib. Sevgisi uğrunda dağı dələn Manjhi üçün dövlət yas mərasimi təşkil edib. Manjhinin təkbaşına açdığı keçidə asfalt tökülərək, inşası tamamlanıb. Manjhinin hekayəsi haqqında film çəkən Ketan Mehta filmə "Manjhi - Dağ adamı" adın verib. Manjhini filmdə Hollivud ulduzu Navadzuddin Siddiqui canlandırıb. Filmin qala gecəsində məşhur ulduzlarla bərabər Manjhinin ailə üzvləri də iştirak edib.**



# Amneziyanın qarşısını alan 6 yol

**Mütəxəssislər son illərdə olduqca geniş yayılan amneziyanın qarşısını alacaq olan tədbirlər haqda məlumat veriblər. İngilis alimləri davamlı idman və yaxşı qidalanma ilə gec yaşda yaranan amneziya xəstəliyinin qarşını almağın mümkün olacağını deyiblər. İngilis həkimləri yaddaşsızlığın qarşısını almaq üçün tədbirlərin siyahısını açıqlayıblar.**

**Davamlı idman**: həftədə 3 dəfə, hər dəfə 30 dəqiqəlik idman beyindəki sinir sistemini yeniləyir.

**Siqareti atın**: Davamlı olaraq siqaret çəkən adamlarda siqaret çəkmək amneziya riskini artırır.

**Başınızı qoruyun**: Boksçuların və müharibədə iştirak edən şəxslərin başlarından aldıqları travma amneziya riskini artırır.

**Krossvord həll edin**: Davamlı olaraq krossvord həll etmək yaddaşsızlığı azaldır.

**Yaxşı qidalanma**: Yeməklərə diqqət etmək, bədən çəkisini nəzarətdə saxlamaq da önəmli məsələlərdən biridir.

**Dəniz məhsulları**: Balıq, səbzə və meyvə də beyni gücləndirən qidalardandır.





## Əncirin bilmədiyimiz faydaları

**Əncir yüksək qızdırmanı, titrətməni, susuzluğu aradan qaldırır və çox faydalıdır. Əncir ödqovucudur və qara ciyəri möhkəmləndirir. Süd içə bilmirsinizsə, əncir yeyin. Əncirin tərkibində olan yüksək miqdarda kalsium, fosfor sümük və dişləri möhkəmləndirir. Əncirin tərkibində olan maqnezium, fosfor xərçəngə qarşı mübarizədə təsirlidir. Quru əncir də uşaqlar üçün çox faydalıdır. Quru əncir doğranır və üzərinə su əlavə edilib 10-15 dəqiqə dəmlənir. O, həmçinin, sidiyin tutulmasına, şiddətli ürək döyüntüsünə, qəbizliyə qarşı xeyirlidir. Ənciri asma, öskürək, ciyərlər ətrafında ağrı və xırıltı zamanı məsləhət görürlər. Süddə bişirilmiş əncir yuxarı nəfəs yolları xəstəliyində yaxşı kömək edir. Yaxşı həzm olunması üçün onu cirə və başqa ədviyyə ilə qəbul etmək məsləhətdir. İbn Sinaya görə, əncirin süd şirəsi içilsə, sidikqovucu təsirə göstərər və böyrəklərdəki qumu əridər. Onun südü əqrəb sancmasına da kömək edir. Yeməkdən əvvəl əncir yeyilərsə, adamı kökəldir və mədəni yumşaldır. Xalq təbabətində müalicəvi məqsədlə yalnız əncirin özündən yox, həm də yarpaqlarından istifadə edilir.**




**QOÇ** - O qədər də ürəkaçan ərəfə deyil. İlk növbədə səhhətinizə diqqət yetirin. Çünki ulduzlar sağlıq durumunuzun aşağı səviyyəyə düşəcəyini bəyan edir. Riskdən də uzaq olun.

**BUĞA** - Maliyyə problemləriniz olsa da, bu, işgüzarlığınızı azaltmayacaq. Hətta ola bilsin ki, saat 15-18 arası maraqlı və perspektivli təklif də alasınız. Özünüzü buna hazırlayın.

**ƏKİZLƏR** - Ulduzlar kənar təsirlərdən uzaq olmağı, yalnız öz qərarınızla addım atmağı tövsiyə edir. Bu gün spirtli içki içmək, qarğış və qeybət etmək, o cümlədən yalan vədlər vermək yolverilməzdir.

**XƏRÇƏNG** - Hər mənada düşərli gündür. Rastlaşdığınız hər bir hadisə ürəyinizdən xəbər verəcək. Əlbəttə ki, bunun üçün özünüz də canfəşanlıq göstərməlisiniz. Sövdələşmələrdə aktiv olun.

**ŞİR** - Bu təqvimi təsadüflərlə başa vuracaqsınız. Gözləmədiyiniz adamlarla, ağlınıza gətirmədiyiniz xəbərlərlə rastlaşacaqsınız. Axşama doğru sürprizlər də mümkündür. Şəxsi büdcənizlə bağlı narahat olmayın.

**QIZ** - Ulduzlar xəbər verir ki, bu təqvim şəxsi işlərinizdə yeni mərhələnin baş qaldırmasına səbəb ola bilər. Bunun üçün müsahiblərinizə diqqətlə qulaq asmalı, düz seçim etməlisiniz.

**TƏRƏZİ** - Kifayət qədər xoş məqamlar yaşayacaqsınız. Bir tərəfdən yeni işgüzar əlaqələr, digər tərəfdənsə ətrafınızdakıların sizə bəraət qazandırması ovqatınızı yüksəldəcək.

**ƏQRƏB** - Sizin üçün müəyyən mənada mistik gündür. Daxili sıxıntılarınızı və ruhi zəifliyinizi aradan qaldırmaq üçün müqəddəs ziyarətgahlarımıza üz tutun. Dini qaydaları pozmayın.

**OXATAN** - Səhhətinizin qayğısına qala bilsəniz, gün ərzində başqa narahatçılığınız olmayacaq. Nahardan sonra sevindirici xəbərlər və ya ürəyinizcə olan təkliflər alacağınıza şübhə etməyin.

**OĞLAQ** - Saat 16-ya qədər bütün vacib işlərinizi yekunlaşdırmağa çalışın. Həmin ərəfədə şəxsi işlərinizdə müsbət dönüş gözlənilir. Sonrakı müddəti isə daha çox istirahətə həsr edin.

**SUTÖKƏN** - Astroloji göstəricilər yalnız səfər və qonaqlıqlar üçün səmərəli vaxt olduğunu bəyan edir. Digər məsələlərdə, xüsusən də fəaliyyət zəminində isə proseslər o qədər də uğurlu olmayacaq.

**BALIQLAR** - Neçə vaxtdan bəri daxilinizdə mövcud olan gərginlik səngimədiyindən nahara qədərki ovqatınız aşağı səviyyədə ola bilər. Sonrakı saatlarda isə sürprizlər gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Evini boşaltmaq üçün 200 min dollar ödədi



**Danimarkanın paytaxtı Kopenhagendə bir ev sahibi 50 il əvvəl kirayə verdiyi evini boşaltmaq üçün 200 min dollar ödəməyə məcbur olub. DR televiziyasının xəbərinə görə, Kopenhagenin ən məşhur yerlərindən olan Nyhavndakı qədim evdə 50 ildir kirayə qalan 73 yaşlı qadın evi boşaltmaq üçün sahibindən 200 min dollar istəyib. Danimarka qanunlarına görə 50 ildir kirayəsini axsatmadan kirayəni ödədiyi üçün kirayəçiyə pul təklif edilməlidir. Ev sahibi, kirayədə qalan şəxsin ödədiyi aylıq ödənişin 3 qatını ödəyərək onu evdən çıxarmaq niyyətindədir. Kimliyi bəlli olmayan 73 yaşlı qadının ev sahibindən aldığı pulla özünə ev alacağı açıqlanıb.**

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300